KHAZAR REVIEW

№ 381 Fevral 2019

# XƏZƏR XƏBƏR




AYLIQ DƏRGİ

ISSN 2218-2772

khazar-review.khazar.org



# XƏZƏR UNİVERSİTETİNDƏ DOKTORANTURAYA QƏBUL: MÜSAHİBƏ MƏRHƏLƏSİ



# ADMISSION TO PHD PROGRAM AT KHAZAR UNIVERSITY: INTERVIEW STAGE







# İÇİNDƏKİLƏR


Xəzər Universitetinin məzunları yüksək vəzifələrdə ..................... 4
Universitet xəbərləri ............................................ 7
Şagirdlər Xəzər Universitetinin qonağı oldular ........................... 10
Tələbələrin sərgi-baxış imtahanı keçirildi ............................. 14
2 Fevral Gənclər Gününə həsr olunmuş "Şəhər İncəsənəti-Azərbaycan" layihəsinin geniş təqdimatı ........................................ 20
Moskvada M.Ə.Rəsulzadənin 135 illik yubileyi ........................... 22
Xəzər Universitetinin Kamera orkestri "Antrakt" verilişinin qonağı oldu ... 26
Professor Hamlet İsaxanlının İstanbula işgüzar səfəri ..................... 27
"Operators, Functions, and Systems of Mathematical Physics Conference" toplusunun təqdimatı ............................................ 28
AMEA Nizami adına Ədəbiyyat İnstitutunun xəbərləri ........................ 32
Mərmərə Qrupu Sosial və Araşdırmalar Vəqfinin 22-ci Avrasiya İqtisadi Zirvəsi keçirildi ............................................. 34
Xəzər Universiteti Şahmat Akademiyasının rəsmi açılışı...................... 37
*Rovshan Abbasov*. My Trip to America: Fulbright Scholar's Impressions of the USA .............................................. 38
Abubakari Yuşavu: "Xəzər Universitetinin akademik mühitindən zövq alıram" (*Xəzər Universitetinin əcnəbi tələbəsi ilə müsahibə*) .............. 46
NDU xəbərləri ................................................ 54
Xocalı faciəsinin ildönümü münasibətilə tədbir ........................... 58
Xəzər Universitetinin Multimedia mərkəzi təqdim edir ..................... 68
*Arçil Sulakauri*. Qar (*hekayə*)........................................ 70



1995-ci ilin
yanvarından nəşr olunur

Təsisçi:
Xəzər Universiteti

Baş redaktor:
Hamlet İsaxanlı

Baş redaktor müavini:
Əlirza Balayev

Redaksiya heyəti:
İsa Həbibbəyli
Alla Axundova
Şahin Fazil
Knyaz Aslan

İngilis dilində
mətnlərin redaktoru:
Zemire Qurbanova

Kompüter tərtibatçısı:
Gürəl Əkbərova

Foto:
Multimedia Mərkəzi



Address:
41 Mahsati str., Baku
(near the "Neftchilar" metro)
Tel.: (+99412) 323 93 13
(+99412) 421 10 93 (209)
GSM: (+99450) 321 31 69
Faks: (+99412) 493 93 79
E-mail: xazarxabar@khazar.org



Certificate: 376
Index: 67178
Copies: 3000

It has been published
since January 1995

Founder:
Khazar University

Editor-in-chief:
Hamlet Isaxanli

Associate editor:
Alirza Balayev

Editorial members:
Isa Habibbeyli
Alla Akhundova
Shahin Fazil
Knyaz Aslan

Editor of English Texts:
Zemire Gurbanova

Computer graphics:
Gural Akberova
Photo:
Multimedia Centre

# XƏZƏR UNİVERSİTETİNİN
# KHAZAR UNIVERSITY



## BAKI ŞƏHƏRİ XƏZƏR RAYON İCRA HAKİMİYYƏTİNİN BAŞÇISI

## HEAD OF KHAZAR DISTRICT EXECUTIVE POWER IN BAKU

Son illərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən həyatın müxtəlif sahələrində geniş islahatlar aparılır və bu prosesdə gənclərə böyük etimad göstərilir. Etimad göstərilənlər arasında xeyli sayda Xəzər Universitetinin məzunları da var.

Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Xəzər Universitetinin məzunu Elşən Salahov Bakı şəhəri Xəzər Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsinə təyin edilmişdir. Bundan əvvəl Elşən Salahov həmin rayonda İcra Hakimiyyəti başçısının birinci müavini vəzifəsində işləmişdir.

Salahov Elşən Rövşən oğlu 2000-ci ilin mart ayında Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsindən Beynəlxalq iqtisadi münasibətlər ixtisası üzrə məzun olmuşdur.

İnanırıq ki, Elşən Salahov "Xəzər"də əldə etdiyi təhsil, bilik və bacarığı, eləcə də sonrakı həyatında qazandığı təcrübə və təşkilatçılıq qabiliyyəti ilə təyin olunduğu bu yüksək dövlət vəzifəsində uğurla fəaliyyət göstərəcək, Azərbaycanın inkişafı yolunda ona göstərilən böyük etimadı layiqincə doğruldacaqdır.

Xəzər Universitetinin müəllim və tələbə heyəti adından Elşən Salahovu təbrik edir, şəxsi həyatında və fəaliyyətində uğurlar arzulayırıq.

In recent years, President Ilham Aliyev has realised extensive reforms in various spheres and within this process, the youth is the point of confidence. There are Khazar University graduates among those young people.

Elshan Salahov, a Khazar University graduate, was appointed Head of the Executive Power of Khazar District, by the Decree of the President of the Republic of Azerbaijan. Prior to that, Elshan Salahov worked as First Deputy Head of Executive Power in that region.

Elshan Salahov Rovshan graduated from Khazar University, the School of Economics and Management, with a degree in International Economic Relations in March, 2000.

We believe that, thanks to his knowledge and skills gained at Khazar University as well as his experience and organizational skills, he will successfully work in that post.

On behalf of teaching staff and students of Khazar University, we congratulate Elshan Salahov and wish him success in his private life and career.

# MƏZUNLARI YÜKSƏK VƏZİFƏLƏRDƏ
# ALUMNI HOLD IMPORTANT POSTS



AQTA
AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ

## AZƏRBAYCAN RESPUBLİKASI QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİNİN APARAT RƏHBƏRİ

## HEAD OF APPARATUS OF THE FOOD SECURITY AGENCY OF THE REPUBLIC OF AZERBAIJAN

Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyində (AQTA) yeni təyinat olub. Agentliyin sədri Qoşqar Təhməzlinin müvafiq əmri ilə Zəkiyyə Mustafayeva AQTA-nın Aparat rəhbəri təyin edilib.

Zəkiyyə Mustafayeva 1968-ci ildə Bakı şəhərində anadan olub. Azərbaycan Tibb Universitetinin Pediatriya fakultəsini fərqlənmə diplomu ilə bitirib, sonra Xəzər Universitetində ictimai sağlamlıq ixtisası üzrə magistr dərəcəsi alıb. Hazırda London Universitetinin Gigiyena və Tropik Təbabət üzrə London Məktəbinin magistrantıdır.

Əmək fəaliyyətinə 1996-cı ildə başlayıb. 1996-2009-cu illərdə səhiyyə sahəsində dövlət və özəl müəssisələrdə, o cümlədən beynəlxalq təşkilatlarda inzibati vəzifələrdə işləyib. 2010-2018-ci illərdə Azərbaycan Respublikası Səhiyyə Nazirliyində Aparat rəhbəri vəzifəsində çalışıb.

Qeyd edək ki, Z. Mustafayeva Azərbaycan Respublikası Prezidentinin 13 iyun 2016-ci il tarixli Sərəncamı ilə səhiyyə sahəsində səmərəli fəaliyyətinə görə "Tərəqqi" medalı ilə təltif edilib.

Daha ətraflı məlumatı bu linklər vasitəsilə əldə etmək olar:

http://qaynarinfo.az/az/qosqar-tehmezli-xanim-memura-yuksek-vezife-verdi/

http://qafqazxeber.az/2019/02/qida-təhlukəsizliyi-agentliyinə-aparat-rəhbəri-təyin-olunub/

There is a new appointment in the Food Safety Agency of the Republic of Azerbaijan. According to relevant order of Goshgar Tahmazli, Chair of Food Safety Agency of the Republic of Azerbaijan, Zakiyya Mustafayeva, was appointed as Head of Administration of the Agency.

Zakiyya Mustafayeva was born in Baku in 1968. She graduated from Azerbaijan Medical University, the School of Pediatrics, and got a Master's degree in Public Health at Khazar University. Currently, she is doing her Master's degree in Hygiene and Tropical Medicine at the University of London.

She started her career in 1996. She worked in administrative posts in the sphere of public health in governmental and private sector as well as international organizations from 1996 to 2009. She worked as Head of Administration in the Ministry of Health from 2010 to 2018.

Z.Mustafayeva was awarded "Progress" medal, by the Order of the President of the Republic of Azerbaijan, dated June 13, 2016, for her fruitful activity in the field of health.

We congratulate Zakiyya Mustafayeva on her new position and wish her success in her private life and career.

Further information is available through the following links:

http://qaynarinfo.az/az/qosqar-tehmezli-xanim-memura-yuksek-vezife-verdi/

http://qafqazxeber.az/2019/02/qida-təhlukəsizliyi-agentliyinə-aparat-rəhbəri-təyin-olunub/



# BANK VTB (AZERBAİJAN)-IN İDARƏ HEYƏTİNİN ÜZVÜ

# MEMBER OF BANK VTB (AZERBAİJAN)'S EXECUTIVE BOARD

Rusiyanın "VTB" bankının Azərbaycandakı törəməsi olan "Bank VTB (Azərbaijan)" ASC-nin İdarə Heyətinə yeni təyinatlar olub.

2019-cu ilin fevralından etibarən Yasin Cəlilov İdarə Heyətinə üzv seçilib. Yasin Cəlilov, həmçinin, adıçəkilən bankda Korporativ biznesin inkişafı departamentinin direktorudur. Xatırladaq ki, o, 2018-ci ilin iyul ayından etibarən həmin departamentə rəhbərlik edir. Yeri gəlmişkən, Y.Cəlilov hazırda bankın İdarə Heyətində yeganə azərbaycanlıdır.

Qeyd edək ki, Y.Cəlilov Xəzər Universitetində beynəlxalq iqtisadi əlaqələr və Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunda politoloq ixtisasları üzrə bakalavr, Azərbaycan Dövlət Neft Akademiyasında isə iqtisadiyyat və menecment ixtisası üzrə magistr dərəcəsinə yiyələnib. Həmçinin, 2015-2018-ci illərdə Böyük Britaniyanın "Warwick Business School" ali məktəbində MBA dərəcəsi üzrə təhsilini davam etdirib. Y.Cəlilov peşəkar fəaliyyətinə 1996-cı ildən Azərbaycan Beynəlxalq Bankının Sənədli əməliyyatlar şöbəsində aparıcı mütəxəssis kimi başlayıb.

O, qazandığı təcrübə sayəsində 2006-cı ildə daha məsul vəzifəyə təyin olunmaqla fəaliyyətini Korporativ biznes departamentinin direktor müavini – Ticarətin və layihələrin maliyyələşdirilməsi şöbəsinin müdiri kimi davam etdirib. 2011-2018-ci illər ərzində Korporativ biznes departamentinin direktoru vəzifəsində çalışıb. Y.Cəlilov sənədli əməliyyatlar sahəsində 22 illik təcrübəyə malikdir və qazandığı təcrübə sayəsində bir çox respublikadaxili və xarici ticarət layihələrinin maliyyələşdirilməsində yaxından iştirak edib.

Onu da əlavə edək ki, Y.Cəlilov Azərbaycan Banklar Assosiasiyasında Ticarətin və layihələrin maliyyələşdirilməsi üzrə Ekspert qrupunun sədridir.

Yeni vəzifəyə seçilməsi münasibətilə Yasin Cəlilovu təbrik edir, şəxsi həyatında və fəaliyyətində uğurlar arzulayırıq.

Daha geniş məlumatı bu linklər vasitəsilə almaq olar:

http://fins.az/bank/972791/tecrubeli-bankir-bank-vtb-azerbaycanin-rehberliyine-getirilib.html

https://banker.az/t%C9%99crub%C9%99li-bankir-bank-vtb-az%C9%99rbaycanin-r%C9%99hb%C9%99rliyin%C9%99-g%C9%99tirilib/

There are new appointments to the Board of Directors of "Bank VTB (Azerbaijan)" OJSC, a subsidiary of Russia's VTB Bank.

Yasin Jalilov has been a member of Board of Directors since February, 2019. He is also Head of the Department of Corporate Business Development of the same bank.

He has been holding this position since June, 2018. It should be remarked that Y.Jalilov is an only Azerbaijani in Board of Directors of the Bank.

Y.Jalilov gained his undergraduate degrees both in International Economic Relations, Khazar University, and Political Sciences, Baku Institute of Social Management and Political Science. He also got a graduate degree in Economy and Management, Azerbaijan State Oil Academy.

Moreover, he got an MBA degree at the Warwick Business School, the UK, in 2015-2018. Y.Jalilov started his professional career in 1996 as a leading expert in the Department of Documentary Operations of the International Bank of Azerbaijan.

Thanks to his experience, in 2006, he was appointed Vice-director of Corporate Business Department - functioning as Head of the Department of Financing Trade and Projects. He worked as Director of Corporate Business Department. He has 22 years of experience in documentary operations. He took an active part in financing several national and international projects.

Y.Jalilov is Chair of the Expert Group for Trade and Project Finance in Azerbaijan Banks Association.

We congratulate Yasin Jalilov for his new post and wish him success in his private life and career.

Further information is available through the following links:

http://fins.az/bank/972791/tecrubeli-bankir-bank-vtb-azerbaycanin-rehberliyine-getirilib.html

https://banker.az/t%C9%99crub%C9%99li-bankir-bank-vtb-az%C9%99rbaycanin-r%C9%99hb%C9%99rliyin%C9%99-g%C9%99tirilib/

# XƏZƏR UNİVERSİTETİNİN PROREKTORUNA DOSENT ATTESTATI TƏQDİM OLUNMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasında diplomların verilməsi mərasimi keçirilmişdir. Mərasimdə Xəzər Universitetinin İdarəetmə və tələbə işləri üzrə prorektoru İsaxan İsaxanlıya da dosent attestatı təqdim olunmuşdur.

İsaxan İsaxanlıya dosent elmi adı verilməsi haqqında qərar Ali Attestasiya Komissiyasının 25 yanvar 2019-cu il tarixli kollegiya iclasında qəbul edilmişdi.




# VICE-RECTOR OF KHAZAR UNIVERSITY IS PRESENTED WITH CERTIFICATE OF ASSOC.PROF.

A diploma presentation ceremony was held at the Supreme Attestation Commission under the President of the Republic of Azerbaijan. At the ceremony, Isakhan Isakhanli, Vice-rector for Administration and Student Affairs, was also presented with a certificate of Assoc.Prof.

A decision to confer an academic title of Assoc.Prof. on Isakhan Isakhanli was made on January 25, 2019, at a board meeting of Supreme Attestation Commission.

# PROFESSOR HAMLET İSAXANLININ YENİ ÇAPDAN ÇIXMIŞ KİTABI HAQQINDA TÜRKİYƏNİN XƏBƏR SAYTI MƏLUMAT YAYDI

# TURKISH NEWS PORTAL WRITES ABOUT NEWLY PUBLISHED BOOK BY PROFESSOR HAMLET ISAKHANLI

Xəbər verildiyi kimi, Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının "Hazana övgü" adlı şeirlər kitabının 2-ci nəşri Türkiyədə çapdan çıxmışdır.

Bu haqda Türkiyənin ***Pusulatr.com*** xəbər saytı xəbər yaymışdır.

Daha geniş məlumatı bu link vasitəsilə əldə etmək olar:

https://www.pusulatr.com/haber_20930_azerbaycanli-hamlet-isahanlinin-hazana-ovgu-kitabinin-2baskisi-cikti.html

As informed before, the second edition of a poems book "Praise for Autumn" by Prof. Hamlet Isakhanli, Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, was published in Turkey.

News portal Pusulatr.com of Turkey posted news about this publication.

Further information is available through the following link:

https://www.pusulatr.com/haber_20930_azerbaycanli-hamlet-isahanlinin-hazana-ovgu-kitabinin-2baskisi-cikti.html.



# İTALİYANIN KA' FOSKARİ UNİVERSİTETİNİN ARXEOLOQU XƏZƏR UNİVERSİTETİNDƏ

# ITALIAN ARCHEOLOGIST FROM CA' FOSCARI UNIVERSITY AT KHAZAR UNIVERSITY

Yanvarın 21-də Venesiyadakı Ka'Foskari Universitetinin Humanitar elmlər departamentinin əməkdaşı Dr. Elena Rova Xəzər Universitetində oldu. Görüşü Xəzər Universitetinin Tarix və arxeologiya departamentinin müəllimi Nuridə Atəşi təşkil etmişdi.

Professor Rova tarix və arxeologiya sahəsində geniş təcrübəyə malikdir. O, adı çəkilən sahələr üzrə bir çox elmi jurnallarda məqalələr dərc etdirmiş və bir sıra beynəlxalq arxeoloji ekspedisiyalarda (Gürcüstan, Suriya və digər ölkələrdə) iştirak etmişdir. Professor Rova Xəzər Universitetində olduğu müddətdə bir neçə görüşdə iştirak etdi.

İlk görüş Tarix və arxeologiya departamentində keçirildi. Görüşdə departamentin müdiri Dr. Roza Arazova, müəllimi Dr. Nuridə Atəşi, İngilis dili və ədəbiyyatı departamentinin koordinatoru Eynur Mehdiyev, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Turan Cəfərova, eləcə də, Tarix və arxeologiya departamentinin bir neçə müəllimi iştirak edirdilər.

Professor Rova sonra tarix müəllimliyi ixtisasında təhsil alan tələbələrlə də görüşdü.

İki görüşün ardınca Professor Rova Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı ilə görüşdü. Görüşdə Profesor İsaxanlı Ka'Foskari Universiteti və Xəzər Universiteti arasında 2013-2016-cı illərdə Erasmus Mundus Təhsil Təcrübələrinin Genişləndirilməsi (EMBER) proqramı çərçivəsində əməkdaşlığı vurğulayaraq, bu əməkdaşlığın qarşılıqlı maraq əsasında digər sahələrdə də inkişaf etdiriləcəyinə ümid etdiyini bildirdi.

On January 21, Dr. Elena Rova, Associate Professor at the Department of Humanities of Ca' Foscari University (Venice) visited Khazar University. The visit was facilitated by Dr. Nourida Ateshi, Lecturer at the Department of History and Archeology of Khazar University.

Professor Rova has wide experience in history and archaeology, she published numerous scientific articles on the subjects, and participated in several international archeological expeditions (in Georgia, Syria, and other countries). While at Khazar University, Prof. Rova participated in several meetings.

The first meeting took place at the Department of History and Archeology. Participants of the meeting included Head of Department, Associate Professor Dr. Roza Arazova, Lecturer Dr. Nourida Ateshi, Vice-Chair of the Department of English Language and Literature Eynur Mehdiyev, Director of International Affairs Office Turan Jafarova as well as several part-time instructors of the Department of History and Archeology. Prof. Rova also met with a group of students majoring in History Teaching.

Following the two meetings, Prof. Rova was accepted by the Founder of Khazar University, Chairman of its Board of Directors and Trustees Prof. Hamlet Isakhanli. Prof. Isakhanli emphasized cooperation between Ca' Foscari and Khazar University within the Erasmus Mundus Broadening Educational Experiences (EMBER) project from 2013 through 2016 and expressed his hopes that cooperation will continue in other fields of mutual interest.

# TARİX VƏ ARXEOLOGİYA DEPARTAMENTİNİN TƏLƏBƏLƏRİ TƏLTİF EDİLDİ

# STUDENTS OF THE DEPARTMENT OF HISTORY AND ARCHAEOLOGY AWARDED







Xəzər Universiteti Tarix və arxeologiya departamentinin yaradılmasının 25 illiyinə həsr edilmiş tədbirin təşkil edilməsində fəal iştirakına görə tarix müəllimliyi ixtisasının II kurs tələbələri yanvarın 22-də keçirilmiş tədbirdə sertifikatla təltif olundular. Sertifikatları universitetin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli,Tarix və arxeologiya departamentinin müdiri Roza Arazova və departamentin müəllimi Orxan Zamanov təqdim etdilər. Sertifikatlar təqdim edildikdən sonra Roza Arazova tələbələrə öz təşəkkürünü bildirdi.

Tədbirin ikinci hissəsində tələbələrlə birlikdə çay süfrəsi arxasında söhbət edildi.

Second-year students, majoring in History Studies, were awarded certificates for active participation in the organization of ceremony dedicated to 25th anniversary of the Department of History and Archaeology of Khazar University. The certificates were presented by Alovsat Amirbayli, Director for Public Relations and Media, Roza Arazova, Head of the Department of History and Archaeology, expressed her gratitude to the students.

In the second half of the ceremony, all the participants had a talk at a tea table.





# ŞAGİRDLƏR XƏZƏR UNİVERSİTETİNİN QONAĞI OLDULAR

# STUDENTS VISIT KHAZAR UNIVERSITY

Yanvarın 23-də Xəzər Universitetinin İctimai əlaqələr və media şöbəsinin təşkilatçılığı ilə İsmayıllı rayonunda fəaliyyət göstərən "Niyal" hazırlıq kurslarının 11-ci və Bakı şəhəri 75 saylı orta məktəbin 10-cu və 11-ci sinif şagirdləri ilə (cəmi 52 tələbə və 3 nəfər müəllim) tanıtım xarakterli görüş keçirildi.

Görüşdə Xəzər Universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, universitetin rektoru Dr.Hassan Niknafs, prorektorlar, dekanlar və departamentlərin nümayəndələri iştirak edirdilər.

İlk növbədə şagirdlər universitetin laboratoriyaları, sonra isə universitetin kitabxanası və dərs otaqları ilə tanış oldular.

Ümumi ekskursiya bitəndən sonra universitetin "Mərmər" zalında keçirilən görüşü universitetin Psixoloji xidmət mərkəzinin direktoru Mələk Kərimova açdı və qonaqları salamladı. Ardınca şagirdlərə "İxtisas seçimi və motivasiya" mövzusunda təlim keçirildi.

Növbəti hissədə professor Fuat Rəsulov Xəzər Universitetinin tanıtımı ilə əlaqəli videoçarx nümayiş etdirməklə yanaşı, Xəzər Universiteti məzunları və onların karyeraları haqqında məlumat verdi. F.Rəsulov, eyni zamanda, gənclərin universitetdə ödənişli və ödənişsiz əsaslarla təhsil almağının mümkünlüyü və üstünlükləri barəsində ətraflı məlumat verdi.

Sonra söz universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlıya verildi. H.İsaxanlı qısa nitqində Xəzər Universitetində yaradılmış mühitdən, səmimi və şəffaf təhsil şəraitindən danışdı.

Yekunda Xəzər Universitetinin rektoru Dr. Hassan Niknafs universitetin beynəlxalq aləmdəki nüfuzunun gündən-günə artdığını, ingilisdilli universitet olması etibarilə üstünlüklərindən bəhs etdi.

Sonda şagirdlər universitetin nümayəndələri ilə xatirə şəkli çəkdirdilər.

On January 23, on organizational support of the Department of Public Relations of Khazar University, a promotional meeting was held hosting 11th grade students of "Niyal" tuition course, based in Ismayilli district, and 10th and 11th grade students of school #75, based in Baku, (in total 52 students and 3 teachers).

The meeting was attended by Prof. Hamlet Isakhanli, Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, Dr.Hassan Niknafs, Rector of the University, as well as vice-rectors, deans and heads of departments.

Firstly, students visited laboratories, library and classrooms of the University. After an excursion in campus, a meeting was held in "Marble" hall which started with an opening speech by Malak Karimova, Director of Psychological Service Center. Then students participated in a workshop "Choice of profession and motivation".

In the next part, Prof.Fuat Rasulov presented a promotional video about Khazar University and gave information about Khazar University graduates and their career. Moreover, he talked about the advantages of education programs at Khazar University which are available as free and paid programs.

Then Prof. Hamlet Isakhanli, Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, made a speech about the positive and transparent environment at Khazar University.

Dr.Hassan Niknafs, Rector of the University, remarked increasing international prestige of the University which offers education programs mainly in English.

At the end, guests had memory photos taken with the hosts.






WiFi


UNIVERSITY









# XƏZƏR UNİVERSİTETİ İLƏ BIOFİZİKA İNSTİTUTU ARASINDA ƏMƏKDAŞLIĞA DAİR MÜQAVİLƏ İMZALANDI

# AN AGREEMENT ON COOPERATION IS SIGNED BETWEEN KHAZAR UNIVERSITY AND THE INSTITUTE OF BIOPHYSICS

Yanvarın 24-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Biofizika İnstitutunda Xəzər Universiteti ilə institut arasında elmi əməkdaşlığa dair müqavilə imzalandı.

Biofizika İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü professor Oqtay Qasımov imzalanacaq sənədin əhəmiyyətindən söz açaraq, bu əməkdaşlığın tərəflər arasında əlaqələrin genişləndirilməsinə təkan verəcəyini, əməkdaşlıq çərçivəsində mühüm nəticələrin əldə olunacağına dair inamını ifadə etdi. Xəzər Universitetinin Elmi işlər üzrə prorektoru dosent İradə Xəlilova çıxış edərək, Biofizika İnstitutu ilə əməkdaşlıqdan məmnunluğunu, cari memorandumun iki qurum arasında əlaqələrin genişləndirilməsi ilə yanaşı, təhsil və elmin inkişafına da təkan verəcəyini bildirdi.

Görüşdə Biofizika İnstitutunun Elmi işlər üzrə direktor müavini biologiya üzrə elmlər doktoru Kərim Qasımov, Neft-Kimya Prosesləri İnstitutunun direktoru akademik Vaqif Abbasov və Xəzər Universitetinin Bioloji elmlər departamentinin dosenti Cavid Ocaqi də iştirak edirdilər.

Azərbaycan Dövlət İnformasiya Agentliyi – AZƏRTAC və digər media qurumları tədbir haqqında xəbər yaymışlar:

https://azertag.az/xeber/Biofizika_Institutu_ile_Xezer_Universiteti_arasinda_emekdasliq_memorandumu_imzalanib-1237534

http://tehsil-press.az/index.php?newsid=36393#newsbase

https://mektebgushesi.az/2019/01/24/biofizika-institutu-il%C9%99-x%C9%99z%C9%99r-universiteti-arasinda-%C9%99m%C9%99kdasliq-memorandumu-imzalanib/

On January 24, an agreement on scientific cooperation was signed between Khazar University and the Institute of Biophysics, Azerbaijan National Academy of Sciences.

In his speech, Prof. Ogtay Gasimov, Director of the Institute of Biophysics and corresponding member of ANAS, remarked the importance of the agreement and added that the agreement would promote wider collaboration between the parties enabling them to gain vital achievements. Then Assoc. Prof. Irada Khalilova, Vice-rector for Research of Khazar University, made a speech and expressed her satisfaction for collaboration with the Institute of Biophysics and mentioned that the agreement would encourage closer collaboration between the parties and boost the development of education and science.

The meeting was also attended by Karim Gasimov, Dr.Sc. in Biology and Vice-rector of the Institute; Academic Vagif Abbasov, Rector of the Institute of Petrochemical Processes; and Javid Ojagi, Assoc. Prof. at the Department of Biological Science of Khazar University.

Azerbaijan State Information Agency – AZERTAC and other country's mainstream media highlighted the news on the event:

https://azertag.az/xeber/Biofizika_Institutu_ile_Xezer_Universiteti_arasinda_emekdasliq_memorandumu_imzalanib-1237534

http://tehsil-press.az/index.php?newsid=36393#newsbase

https://mektebgushesi.az/2019/01/24/biofizika-institutu-il%C9%99-x%C9%99z%C9%99r-universiteti-arasinda-%C9%99m%C9%99kdasliq-memorandumu-imzalanib/



# PSİXOLOQUN "DÜNYA" MƏKTƏBİNDƏ VALİDEYNLƏRLƏ GÖRÜŞÜ

# PSYCHOLOGIST MEETS WITH PARENTS AT "DUNYA" SCHOOL

Yanvarın 24-də Xəzər Psixoloji Xidmət Mərkəzinin direktoru, Psixologiya departamentinin koordinatoru psixoloq Mələk Kərimova Xəzər Universitetinin nəzdində fəaliyyət göstərən "Dünya" məktəbində valideynlərlə görüş keçirdi. Görüş zamanı valideynlərin övladları ilə ünsiyyətində onların yaş xüsusiyyətlərinin nəzərə alınması, məktəb-ailə-müəllim münasibətlərinin və qarşılıqlı əməkdaşlığın zəruriliyi, valideynlərin uşaqlara yanaşma tərzlərində "doğru"qəbul edilən "səhvləri" və yaxın gələcəkdə cəmiyyətin ehtiyac hiss edəcəyi bilik, bacarıqlar, qabiliyyətlər haqqında müzakirə aparıldı.

Valideynlər belə görüşlərin keçirilməsinin vacibliyini, davamlılığının zəruriliyini vurğulayaraq, məmnuniyyətlərini ifadə etdilər.

On January 24, Malak Karimova, Director of Khazar Psychology Service Center and Coordinator at the Department of Psychology, had a meeting with parents at "Dunya" school affiliated with Khazar University. During the meeting, participants discussed several issues such as consideration of age characteristics of children while communicating with them, the importance of collaboration between parents and school, as well as "myths" regarded as "truths" in parents' approaches to children, and knowledge and skills to be required in the near future.

Parents expressed their satisfaction with the meeting and remarked the importance of having regular meetings of this kind.



# TƏLƏBƏLƏRİN SƏRGİ-BAXIŞ İMTAHANI KEÇİRİLDİ






Yanvarın 25-də Xəzər Universitetinin Mərmər zalında dizayn ixtisası və Musiqi və incəsənət departamentinin rəssamlıq ixtisası tələbələrinin sərgi-baxış imtahanı keçirildi. Tədbirdə universitetin rəhbərliyi və əməkdaşları, qonaqlar - Əməkdar incəsənət xadimi, məşhur rəngkar Asif Azərelli, əməkdar rəssam, tanınmış animatorçu Elçin Hami Axundov, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının müəllimləri və valideynlər iştirak edirdilər

Tədbiri universitetin müəllimi, dizayn ixtisasının koordinatoru Afaq Kərimova açaraq, iştirakçıları salamladı, qonaqları və universitetin dizayn müəllimləri Anar Əsədov, Elvi Kamali və Kamran Əsədovu təqdim etdi, sərginin hazırlanması prosesindən danışdı. Sonra tələbələr öz işləri haqqında izahat verdilər.

Asif Azərelli, Elçin Hami Axundov və digərləri çıxış edərək, tələbələrin işlərini yüksək qiymətləndirdilər və tövsiyələrini bildirdilər.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı sərgi ilə tanış olduqdan sonra tələbələrlə söhbət edərək, işləri haqqında fikirlərini bildirdi, onlara uğurlar arzuladı.

*(Ardı səh.16-da)*



# STUDENTS' EXHIBITION-REVIEW EXAM HELD





On January 25, an exhibition-review exam for students of the Department of Music and Art specialising in Artistry was held in "Marble" hall at Khazar University. The event was attended by the university administration, guests - Asif Azerelli, Honored Art Worker and a famous painter; Elchin Hami Akhundov, Honored Artist and well-known animator, as well as parents and instructors of Azerbaijan State Academy of Arts.

Afag Karimova, Coordinator on Design speciality at Khazar University made an opening speech greeting participants. She introduced Anar Asadov, Elvi Kamali and Kamran Asadov, Design Instructors at the University, and gave information about the organization of the exhibition. Then students gave explanations about their works.

Asif Azerelli, Elchin Hami Akhundov and others delivered speeches and appreciated students' performance and made their recommendations.

Upon getting acquainted with the exhibition, Prof. Hamlet Isakhanli, Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, had a talk with the students, expressed his views and wished them success.

*(To be continued page 16)*






BAKI
KHAZAR UNIVERSITY









## "KHAZAR JOURNAL OF SCIENCE AND TECHNOLOGY" JURNALININ NÖVBƏTİ SAYI ÇAPDAN ÇIXIB

Xəzər Universitetinin nəşri olan "Khazar Journal of Science and Technology" elmi jurnalının ("Xəzər Elm və Texnologiya Jurnalı") növbəti sayı (Vol 2, N2, 2018) çapdan çıxmışdır.

Jurnalın bu buraxılışında çap olunan materiallar kimya mühəndisliyi, fizika, riyaziyyat və kompüter elmlərinə aid aparılan tədqiqatların nəticələrini özündə əks etdirir. Jurnalın elektron versiyası ilə bu link vasitəsilə tanış olmaq olar: www.kjsat.com




## NEXT ISSUE OF "KHAZAR JOURNAL OF SCIENCE AND TECHNOLOGY" IS PUBLISHED

Next issue (Vol 2, N2, 2018) of "Khazar Journal of Science and Technology", a Khazar University publication, was published.

This issue of the journal includes research articles in Chemical Engineering, Physics, Mathematics and Computer Sciences. An electronic version of the journal is available through the following link: www.kjsat.com




## "KHAZAR JOURNAL OF HUMANITIES AND SOCIAL SCIENCES" JURNALININ NÖVBƏTİ SAYI ÇAPDAN ÇIXIB

Xəzər Universitetinin nəşri olan *Khazar Journal of Humanities and Social Sciences* ("Xəzər humanitar və sosial elmlər jurnalı") jurnalının növbəti sayı (№4, 2018, cild 21) Xəzər Universitetinin Nəşriyyatında çapdan çıxmışdır. Jurnalın bu sayında Aminul İslam, Behzad Pourgharib, Afsaneh Pourebrahim, Zeki Aksu, Alper Cihan Konyalıoğlu, Ümit Kul, Nuriye Karabulut və digər xarici mütəxəssislərin humanitar sahəyə aid müxtəlif mövzularda məqalələri dərc olunmuşdur.

Jurnalın elektron versiyasını bu keçiddən əldə etmək olar: *www.jhss-khazar.org*

## NEXT ISSUE OF "KHAZAR JOURNAL OF HUMANITIES AND SOCIAL SCIENCES" IS PUBLISHED

Next issue (№4, 2018, volume 21) of Khazar Journal of Humanities and Social Sciences, a Khazar University publication, was published at Khazar University Press.

This issue of the journal includes articles, dedicated to Humanities, by international experts - Aminul Islam, Behzad Pourgharib, Afsaneh Pourebrahim, Zeki Aksu, Alper Jihan Konyalıoghlu, Umit Kul, and Nuriye Karabulut. The electronic version of the journal is available through this link: www.jhss-khazar.org.

# İQTİSADİYYAT VƏ MENECMENT FAKÜLTƏSİ VƏ MİLLİ MÜHASİBLƏR FORUMUNUN NÖVBƏTİ SEMİNARI

# NEXT WORKSHOP OF SCHOOL OF ECONOMICS AND MANAGEMENT AND NATIONAL ACCOUNTANTS FORUM






Yanvarın 27-də Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsi və Milli Mühasiblər Forumunun növbəti seminarı keçirildi. Budəfəki seminarda da mühasibat uçotu sahəsinin tanınmış mütəxəssisləri çıxış edirdilər.

Seminarı giriş sözü ilə açan Milli Mühasiblər Forumunun Təşkilat Komitəsinin sədri Dr. Ruslan Atakişiyev forumun fəaliyyət prinsipləri və tədbirin keçirilməsi məqsədi barəsində iştirakçıları məlumatlandırdı. Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsinin müəllimi Dr. Elsevər İbadov seminar iştirakçılarını salamladı. Xəzər Universitetinin elm və təhsil sahələrindəki fəaliyyətləri və mühasibat uçotunun tədrisi haqqında iştirakçılara məlumat verdi.

Bakı Hesabat Mərkəzinin direktoru Mehdi Babayev "Azərbaycan Respublikası Vergi Məcəlləsində edilən dəyişikliklərin mühasibat uçotuna təsirləri", İqtisadi Araşdırmalar və Tədris Mərkəzinin vitse-prezidenti Radil Fətullayev "Mənfəət vergisi bəyannaməsinin və sadələşdirilmiş vergi bəyannaməsinin 1 nömrəli əlavəsinin tərtibi yolları", "Mühasibat uçotu" jurnalının baş redaktoru, vergilər üzrə ekspert Əflatun Babayev isə "Azərbaycan Respublikası Vergi Məcəlləsində edilmiş son dəyişikliklərlə bağlı Mühasibat Uçotunun təşkili qarşısında duran yeni vəzifələr" mövzusunda çıxış etdilər.

Sonra iştirakçıları maraqlandıran suallar cavablandırıldı, mövzular ətrafında müzakirələr aparıldı. Seminarda bir sıra tanınmış müəssisələrin baş mühasibləri, mühasibləri, maliyyə menecerləri, universitet müəllimləri və tələbələr iştirak edirdilər.

Qeyd edək ki, Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsinin və Milli Mühasiblər Forumunun əməkdaşlığı çərçivəsində təşkil edilən silsilə seminarların hər ay keçirilməsi planlaşdırılır.

On January 27, the School of Economics and Management and National Accountants Forum co-organized next workshop which was attended by prominent experts in accounting.

Delivering an opening speech, Ruslan Atakishiyev, Chairman of the Organizing Committee of the National Accountants Forum, informed the attendees about principles of the Forum and aim of the event. Then Dr. Elsevar Ibadov, Instructor of the School of Economics and Management, greeted the attendees and gave information about Khazar University's achievements in science and education as well as accounting education at Khazar University.

Then the following reports were delivered in the workshop: "Impact of changes in the Tax Code of Azerbaijan Republic on accounting" by Mehdi Babayev, Director of Baku Report Center; "Methods of preparation of Annex No. 1 for Income Tax Declaration and Simplified Tax Declaration" by Radil Fatullayev, Vice-president of the Economic Research and Training Center; "New Obligations in the Organization of Accounting with regards to changes in Tax Code" by Aflatun Babayev, a tax expert and editor-in-chief of "Accounting" journal.

These kinds of workshops are planned to be held monthly within the collaboration of the School of Economics and Management and National Accountants Forum.

Then speakers had welcoming questions and discussed various issues. The workshop was attended by chief accountants and financial managers of some well-known companies, university instructors and students.



# TARİX VƏ ARXEOLOGİYA DEPARTAMENTİNDƏ MƏZUNLARLA GÖRÜŞ

# MEETING WITH GRADUATES AT THE DEPARTMENT OF HISTORY AND ARCHAEOLOGY

Yanvarın 29-da Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müdiri Roza Arazova və müəllimi Orxan Zamanov müxtəlif illərdə məzun olmuş tələbələrlə görüşdülər. Görüşdə müxtəlif yerlərdə fəaliyyət göstərən məzunlar, magistraturaya hazırlaşan tələbələr iştirak etdilər.

Görüş zamanı magistr dərəcəsi haqqında məsləhətlər verildi. Arxeologiya ixtisasına yiyələnmək istəyən tələbələrə Orxan Zamanov öz təcrübəsindən danışdı və tövsiyələrini bildirdi.

On January 29, Roza Arazova, Head of the Department of History and Archaeology of Khazar University and Orkhan Zamanov, Instructor of the same department, had a meeting with graduates of various years. The meeting was attended by graduates currently working for various organizations as well as those who intend to get a Master's degree who were given advice on graduate education. Orkhan Zamanov shared his experience and gave a recommendation to those wishing to specialize in archaeology.



# 2 FEVRAL GƏNCLƏR GÜNÜNƏ HƏSR OLUNMUŞ "ŞƏHƏR İNCƏSƏNƏTİ - AZƏRBAYCAN" LAYİHƏSİNİN GENİŞ TƏQDİMATI

# PRESENTATION OF "CITY ART - AZERBAIJAN" DEDICATED TO FEBRUARY 2 - YOUTH DAY

Yanvarın 29-da AMEA Milli Azərbaycan Tarixi Muzeyində muzeyin Xarici əlaqələr və elmi-kütləvi iş şöbəsi və Gənc Alim və Mütəxəssislər Şurasının birgə təşkilatçılığı ilə "Şəhər incəsənəti-Azərbaycan" (*City Art Azerbaijan*)" layihəsinin geniş təqdimatı keçirildi.

Tədbirdə layihənin ideya müəllifi, tərəfdaşları – Xəzər Universiteti, AMEA Gənc Alim və Mütəxəssislər Şurası, Azərbaycan Memarlıq və İncəsənət İnstitutu, Milli Azərbaycan Tarixi Muzeyi, Qobustan Milli Tarixi-Bədii Qoruğu, Mirzə Ələkbər Sabir Fondu və Azərbaycan Arxeoloqlar Cəmiyyəti İB-nin təmsilçiləri, gənc rəssam, heykəltəraş, fotoqraf və KİV nümayəndələri iştirak edirdilər.

Tədbirdə Milli Azərbaycan Tarixi Muzeyi Gənc Alim və Mütəxəssislər Şurasının sədri Sevinc Nəsirova, AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun elmi işçisi və Xəzər Universitetinin Tarix və Arxeologiya departamentinin əməkdaşı, layihənin ideya müəllifi Orxan Zamanov, Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru Ələvsət Əmirbəyli, Xəzər Universitetinin Rəssamlıq və Təsviri Sənət Muzeyinin direktoru Afaq Kərimova, Xəzər Universitetinin Tarix və Arxeologiya departamentinin müdiri, trasoloq-arxeoloq Roza Arazova, Qobustan Milli Bədii-Tarixi Qoruğunun əməkdaşı, rəssam Səidə Musayeva, Mirzə Ələkbər Sabir Fondunun prezidenti Sevda Tahirli, AMEA Gənc Alim və Mütəxəsislər Şurasının sədri Famin Salmanov, AR Prezidenti yanında QHT-lərə Dəstək Şurasının katibi Nərgiz Xələf, AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Elmi-ekspozisiya şöbəsinin müdiri və Azərbaycan Arxeoloqlar Cəmiyyətinin sədri Fərhad Quliyev çıxış etdilər.

Çıxışlarda qeyd olundu ki, gənclər arasında Bakının şəhər incəsənətini, xalqımızın tarixini və istedadını təbliğ etmək, incəsənətin inkişafının dəstəklənməsi önəmlidir. Gənclərin yaşadıqları şəhərləri gözəlləşdirmək və bu məqsədlə mütərəqqi ideyaların təşviqi və tətbiqi, "Şəhər incəsənəti" ideyasının və anlayışının gənclər arasında yayılması və genişləndirilməsi vacibdir.

On January 29, the Department of Foreign Affairs and Massive Scientific Research of the National History Museum of Azerbaijan, ANAS, in collaboration with the Council of Young Scholars and Experts co-organized presentation of "City Art Azerbaijan" at the National History Museum of Azerbaijan.

The presentation ceremony was attended by partners and authors of the project - Khazar University, the Council of Young Scholars and Experts of ANAS, the Institute of Architecture and Art of Azerbaijan, the National History Museum of Azerbaijan, Gobustan National Historical and Artistic Reserve, Mirza Alakbar Sabir Foundation, representatives of the "Azerbaijan Archaeological Society" Public Union, young artists, sculptors, photographers media representatives.

Sevinj Nasirova, Chair of the Council of Young Scholars of the National History Museum of Azerbaijan; Orkhan Zamanov, Researcher of the Institute of Archeology and Ethnography of ANAS and Instructor of the Department of History and Archaeology of Khazar University; Alovsat Amirbayli, Director of Public Relations and Media of Khazar University; Afag Karimova, Director of the Museum of Fine Arts and Art of Khazar University; Roza Arazova, archaeologist and Head of Department of History and Archeology of Khazar University; artist Saida Musayeva, associate of Gobustan National Historical and Artistic Reserve; Sevsa Tahirli, President of the Mirza Alakbar Sabir Foundation; Famin Salmanov, Chair of the Council of Young Scholars of ANAS; Nargiz Khalaf, Secretary and member of the Council on State Support to Non-Governmental Organizations under the President of the Republic of Azerbaijan; and Farhad Guliyev, Head of the Department of Scientific Exposition of the Institute of Archeology and Ethnography of ANAS, delivered speeches in the event.

It was mentioned in the speeches that it was important to promote city art of Baku as well as the history of our people among the young generation. For this purpose, it is vital to beautify our cities, promote progressive ideas, and disseminate the idea of "city art".












# MOSKVADA M.Ə.RƏSULZADƏNİN 135 İLLİK YUBİLEYİ

# 135th ANNIVERSARY OF M.A.RASULZADEH IN MOSCOW

2019-cu il yanvarın 31-də Məhəmməd Əmin Rəsulzadənin anadan olmasının 135-ci ildönümü münasibətilə Moskvada təntənəli tədbir keçirildi.

Tədbirdə Azərbaycan Xalq Cümhuriyyətinin qurucusunun nəvəsi Rəis Rəsulzadə, Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müəllimi, tədqiqatçı-alim Nəsiman Yaqublu və Moskvada yaşayan azərbaycanlı ziyalılardan –Füzuli Fərəcov, Kamran Rüstəmov, Ramiz Abutalıbov, Moskvadakı Rəsulzadə məclisinin fəallarından –Nadir Şəkili, İlqar Məmmədov, Mayis Səfərəliyev, Şaiq Məmmədov və digərləri iştirak edirdilər.

On January 31, 2019, a solemn ceremony to commemorate the 135th anniversary of Mahammad Amin Rasulzadeh was held in Moscow.

The ceremony was attended by Rais Rasulzadeh, the grandson of the founder of the Azerbaijan Democratic Republic; Nasiman Yagublu, Instructor of the Department of History and Archaeology of Khazar University; as well as Fuzuli Farajov, Kamran Rustamov, Ramiz Abutalibov, Azerbaijani intellectuals living in Moscow; and Nadir Shakili, Ilgar Mammadov, Mayis Safaraliyev and Shaig Mammadov, activists of the Rasulzadeh assembly in Moscow.



## AMEA BİOFİZİKA İNSTİTUTUNUN DİREKTORU XƏZƏR UNİVERSİTETİNDƏ

## DIRECTOR OF THE INSTITUTE OF BIOPHYSICS OF ANAS VISITS KHAZAR UNIVERSITY

Yanvarın 31-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının dəvəti ilə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Biofizika İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü professor Oktay Qasımov, elmi işlər üzrə onun müavini professor Kərim Qasımov və İnteqrativ biologiya laboratoriyasının müdiri, AMEA-nın müxbir üzvü, professor İlham Şahmuradov Xəzər Universitetinin qonağı oldular. AMEA-nın əməkdaşları ilə ilk görüş cari il yanvarın 24-də Biofizika İnstitutunda olmuşdu. Orada AMEA-nın Biofizika İnstitutu və Xəzər Universiteti ilə onun "Dünya" məktəbi arasında elm və təhsil sahəsində əməkdaşlıq memorandumu imzalanmışdı.

Xəzər Universitetində görüş zamanı professor Hamlet İsaxanlı bu əməkdaşlığın hər iki tərəf üçün çox mühüm əhəmiyyət kəsb etdiyini vurğuladı. Öz növbəsində professor Oktay Kazımov çıxış edərək, Biofizika İnstitutunda təşkil edilən tədqiqatların mühüm əhəmiyyətindən və bu tədqiqatların universitetin tələbə və gənc tədqiqatçılarına elmi texniki dəstəyinin əhəmiyyətindən danışdı.

Görüşdə Xəzər Universitetinin Elmi işlər üzrə prorektoru dosent İradə Xəlilova, Elektronika və telekommunikasiya departamentinin müdiri Dr. Nuru Səfərov, Bioloji elmlər departamentinin dosenti Cavid Ocaqi, Kimya mühəndisliyi və tətbiqi kimya departamentinin koordinatoru Dr. Rasul Muradi iştirak edirdilər.

Görüş zamanı hər iki tərəfi maraqlandıran müxtəlif məsələlər, o cümlədən laboratoriyada texniki cihazların yaranmasının tələbələrə əyani göstərilməsi, laboratoriyalarda mövcud cihazların iki qurumun tələbə və tədqiqatçıları arasında birgə mübadiləsi və istifadəsi, beynəlxalq layihələrin birgə yazılması və iştirak, elmi-pedaqoji və elmi əməkdaşlığın gücləndirilməsi məsələləri müzakirə olundu.

Sonra qonaqlar Xəzər Universitetində yeni yaradılan müasir Nanotexnologiya və Hüceyrə Patologiyası Tədqiqat Mərkəzinin laboratoriyalarında aparılan tədqiqat işləri ilə tanış oldular.

On January 31, on an invitation of Prof. Hamlet Isakhanli, Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, Oktay Gasimov, Director of the Institute of Biophysics of Azerbaijan, National Academy of Sciences, and a corresponding member of the Academy; Karim Gasimov, Vice-rector for Research of the Institute; and Prof. Ilham Shahmuradov, Head of Integrative Biology Laboratory and a corresponding member of the Academy, visited Khazar University. Previously, Khazar University associates had a meeting at the Institute of Biophysics on January 24. At that meeting, a memorandum of understanding was made between the Institute of Biophysics and "Dunya" School of Khazar University.

During the meeting at Khazar University, Prof. Hamlet Isakhanli stressed that this cooperation was very important for both sides. In his speech, Prof. Oktay Kazimov emphasized the importance of researches conducted at the Institute. He also remarked that it was important students and researchers of the University support the researches at the Institute.

The meeting was attended by Irada Khalilova, Vice-rector for Research of Khazar University; Dr.Nuru Safarov, Head of the Department of Electronics and Telecommunications; Javid Ojagi, Assoc.Prof. at the Department of Biological Sciences; Dr.Rasul Muradi, Coordinator at the Department of Chemical Engineering and Applied Chemistry.

Issues of mutual interest such as practical demonstration of the development of technical devices in the laboratory, shared use of devices in the laboratory by researchers and students of both parties, joint development and implementation of international projects, and strengthening scientific and pedagogical collaboration was discussed at the meeting.

Then guests visited Nanotechnology and Cell Pathology Research Center newly established at Khazar University and got acquainted with the researches.

XƏZƏR UNİVERSİTETİ 1991 BAKI
KHAZAR UNIVERSITY

ATİB
AZƏRBAYCAN TÜRKİYƏ İŞ ADAMLARI BİRLİYİ
AZERBAIJAN TURKEY BUSINESSMEN ASSOCIATION



# PROFESSOR HAMLET İSAXANLI ATİB BAŞQANI İLƏ GÖRÜŞDÜ

# PROFESSOR HAMLET ISAKHANLI MEETS HEAD OF TURKISH BUSINESSMEN ASSOCIATION

6 ölkədən olan 10 partyor universitetdən 35 nümayəndənin iştirak etdiyi görüşlər Erasmus+ KA2 layihəsi "Mediasiya: Təlim və ictimai transformasiya" çərçivəsində aparılırdı. Layihə tərəfindən hədəflənən bir sıra məsələlər, habelə mediasiya federasiyasının yaradılması, mediasiya üzrə təhsil kurrikulumunun hazırlanması məsələləri görüşlər zamanı müzakirə olundu. İştirakçılar, həmçinin, mediasiyanın vacibliyi və onun cəmiyyətdə rolu haqqında geniş informasiya verən təlimlərdə iştirak etdilər.

Məhsuldar həftənin sonunda hər bir ölkənin nümayəndələri növbəti 3 il ərzində layihə çərçivəsində görüləcək işləri özündə əks etdirən tədbirlər planını təqdim etdilər.

On February 4-8, Elmar Mustafayev – head of Political Science and Philosophy Department, Malak Karimova – coordinator of the Psychology Department and Director of Khazar Psychological Center, Lamiya Panahova – coordinator of International Affairs Office, and Nilufar Alizada – lecturer of the Psychology Department, participated in a number of meetings and trainings at Netherlands Business Academy.

Around 35 representatives from 10 partner universities of 6 countries came together to participate in the meetings and start the Erasmus+ Key Action 2 project "Mediation: Training and Society Transformation (MEDIATS)". A number of key topics that are targeted by the project were discussed during the meetings, such as developing a mediation federation and a degree curriculum on mediation. Khazar staff participated in several trainings as well to acquire a comprehensive insight into the importance of mediation and the role it plays in society's positive transformation.

At the end of the fruitful week, each country represented an action plan describing measures to be taken and works to be done for successful implementation of the project through the next 3 years.





# PSİXOLOGİYA DEPARTAMENTİNİN RƏHBƏRİ TƏLƏBƏLƏRLƏ GÖRÜŞDÜ

# HEAD OF THE DEPARTMENT OF PSYCHOLOGY MEETS STUDENTS

Fevralın 12-də Xəzər Universitetinin Psixologiya departamentinin tələbələri ilə departamentin rəhbəri Ülkər İsayevanın "Psixologiya müasir dünyada" mövzusunda görüşü oldu. Görüşün əsas məqsədi tələbələrlə daha yaxından tanışlıq, bilik və bacarıqların artırılması istiqamətində müzakirələr aparmaq, ən son tədqiqat və nəzəriyyələrin analizi və fundamental nəzəriyyələr ilə müqayisəsi, video materialların təhlili və s. idi.

Tələbələr müzakirələrdə fəal iştirak etdilər, suallarına ətraflı cavablar aldılar və təkliflərini bildirdilər.

On February 12, a meeting entitled "Psychology in a modern world" with the participation of students of the Department of Psychology and Head of the department. The main purpose of the meeting was acquaintance with students, discussions about increasing knowledge and skills, analysis of recent research and theories, as well as comparison with fundamental theories, analysis of video materials, etc.

Students took an active part in the discussions with questions and suggestions.

# "POTENSİAL MƏKTƏB DİREKTORLARINA MƏKTƏBİN İDARƏ EDİLMƏSİ ÜZRƏ TƏLİM KURSU" LAYİHƏSİNİN 10-CU TƏLİMLƏRİ BAŞLADI

# 10TH TRAINING OF THE PROJECT "TRAINING FOR POTENTIAL PRINCIPALS FOR SCHOOL MANAGEMENT" STARTS

Fevralın 12-də Xəzər Universitetinin həyata keçirdiyi "Potensial məktəb direktorlarına məktəbin idarə edilməsi üzrə təlim kursu" layihəsinin 10-cu qəbulunun iştirakçıları təlimlərə başladı.

Təlimin əsas məqsədi ölkədəki yeni təhsil strategiyasına və təhsil islahatına uyğun olaraq məktəb direktorlarının və gələcəkdə bu sahədə fəaliyyət göstərmək istəyən təhsil işçilərinin bilik və bacarıqlarını artırmaq, onları dünyadakı səmərəli idarəetmə təcrübəsi ilə tanış etməkdir. Bu məqsədlə 8 fənn (Kurrikulumun tətbiqi və idarə edilməsi, Təhsilin idarə olunması, Statistika və məlumatların təhlili, Maliyyə və mühasibat uçotu, Qanunvericilik və təhsil hüququ, Təhsil psixologiyası, Məntiq və İKT) üzrə dərslər həftənin 3 günü olmaqla 12 həftə ərzində Xəzər Universitetinin "Neftçilər" kampusunda tədris olunacaq.

On February 12, training for the 10th cohort of the project "Training for potential principals for school management" started.

The main aim of the trainings is to increase principals' and potential principals' knowledge and skills in new national education strategy and education reforms, and introduce effective school management experience. Trainings are conducted 3 days in a week, 12 weeks in total, at "Neftchilar" campus of Khazar University. Trainings will cover 8 subjects (Curriculum Implementation and Management, Education Management, Statistics and Data Analysis, Finance and Accounting, Legislation and Education, Educational Psychology, Logic and ICT).

# "QAFQAZDA GÖRÜŞLƏR VƏ QARŞILIQLI TƏSİRLƏR. MƏDƏNİYYƏTLƏRARASI ƏLAQƏLƏRİN UZUNMÜDDƏTLİ TARİXİ"ADLI BEYNƏLXALQ KONFRANSIN MATERİALLARINDAN İBARƏT TOPLU ÇAP OLUNUB

Qafqaz mədəniyyətləri tez-tez kimliklər, xalqlar və dillərin müqayisəsi kimi görülür. Dillərin və xalqların öz ənənələrinə əsaslanan mozaikasına uyğun olaraq Qafqaz ərazisinə həm də uzunmüddətli tarixdə qarşılıqlı təsirlərin və yeni formaların yaradılması kontekstində yanaşmaq mümkündür.

2017 -ci il noyabrın 7-9-da "labex TransferS" və Xəzər Universitetinin birgə təşkilatçılığı ilə Xəzər Universitetində keçirilmiş "Qafqazda görüşlər və qarşılıqlı təsirlər. Mədəniyyətlərarası əlaqələrin uzunmüddətli tarixi" adlı beynəlxalq konfrans uzunmüddətli tarixdə, Qədim dövrdən Sovet dövrünün sonuna qədər olan müddətdə, Qafqaz regionunda çarpazlaşdırılmaları öyrənmək üçün başlanğıc nöqtəsi rolunu oynamışdır. Beynəlxalq görüşün materiallarından ibarət irihəcmli toplu – "*A long-term history of Cross-cultural Transfer in the Caucasus*" kitabı 10 fevral 2019–cu ildə ingilis dilində Xəzər Universitetinin Neşriyyatında çapdan çıxmışdır.




Topluda Azərbaycan, Fransa, Gürcüstan, Rusiya, Dağıstan və İnquşetiyadan olan 20 görkəmli alim, aparıcı mütəxəssis və tədqiqatçıların məruzələrinin tezisləri yer almışdır.

Topluya konfransın təşkilatçıları, o cümlədən kitabın redaktorları –Hamlet İsaxanlı (Xəzər Universiteti), Şahin Mustafayev (AMEA və Michel Espagne (Parisdə Elmi Araşdırmalar üzrə Milli Mərkəz) ingilis dilində ön söz yazmışlar. Toplunun fransız dilində nəşri də planlaşdırılır.

# PROCEEDINGS OF INTERNATIONAL CONFERENCE "ENCOUNTERS AND INTERWEAVINGS IN CAUCASUS: A LONG-TERM HISTORY OF CROSS-CULTURAL TRANSFERS" PUBLISHED

Caucasian cultures are regarded as a comparison of identities, peoples and languages. In accordance with the mosaic of traditions of peoples and languages, it is possible to regard the Caucasus a place of development of long-term mutual influence and new forms.

On November 7-9, 2017, "Meetings and Interactions in the Caucasus. A long-term history of intercultural relations" International Conference was held on organizational support of "labex TransferS" and Khazar University. The conference functioned as a starting point to study crossings in the Caucasus within a long-term history from ancient times to the Soviet period. A voluminous book titled "A long-term history of Cross-cultural Transfer in the Caucasus" was published at Khazar University Press on February 10, 2019.

The book includes report abstracts of 20 prominent scientists, leading experts and researchers from Azerbaijan, France, Georgia, Russia, Dagestan and Ingushetia.

The book also includes forewords by Hamlet Isakhanli (Khazar University), Shahin Mustafayev (ANAS) and Michel Espagne (National Center for Scientific Research in Paris).

The book is to be translated into French soon.





# BAKCELL VƏ ENGINET "TƏHLÜKƏSIZ İNTERNET GÜNÜ" İLƏ BAĞLI "DÜNYA" MƏKTƏBİNDƏ TƏLİM KEÇİRIB

# BAKCELL AND ENGINET HOLDS TRAINING AT "DUNYA" SCHOOL ABOUT THE "SAFER INTERNET DAY"

Azərbaycanın ilk mobil operatoru Bakcell Azərbaycanın ilk FTTH provayderi olan ENGINET şirkəti ilə birlikdə məktəblilər üçün Beynəlxalq "Təhlükəsiz İnternet Günü" və "Fərdi Məlumatların Mühafizəsi Günü" ilə bağlı təlimlər keçirib.

"İnternetdən təhlükəsiz istifadə" metodlarına dair növbəti maarifləndirici təlim "Dünya" məktəbində təşkil edilib. Azərbaycan Respublikasının Təhsil Nazirliyinin dəstəyi ilə icra olunan "Təhlükəsiz İnternet" layihəsi çərçivəsində təşkil olunan təlim zamanı şagirdlərə təhsilin inkişafında faydalı resurs mənbəyi olan internet mühitindəki zərərli məzmunlar barədə məlumat verilərək, internetdən təhlükəsiz istifadəyə dair qaydalar izah olunub. Həmçinin, şagirdlərə Bakcell və ENGINET şirkətlərinin birgə hazırladıqları "Təhlükəsiz İnternet Paketləri" barədə geniş məlumat verilib.

Daha geniş məlumatı bu link vasitəsilə əldə etmək olar:
*http://sia.az/az/news/technology/725394.html*

Bakcell, the first mobile operator of Azerbaijan, and ENGINET, the first FTTH of Azerbaijan, held workshops for students on international "Safe Internet Day" and "Personal Data Protection Day".

Next enlightening workshops on "Methods of Safe Internet Use" were held at "Dunya" School of Khazar University and "Hadaf" Lyceum. The workshops were held within the "Safe Internet" project implemented by the support of the Ministry of Education. At the workshops, students and teachers were informed about harmful content on the Internet which is the source of useful resources. They were also instructed about the rules of safe internet use. Moreover, the attendees were informed about "Safe Internet Packages" developed by Bakcell və ENGINET company.

*For information:*
*http://sia.az/az/news/technology/725394.html*





*"Xəzər və dünya"*



## ABUBAKARİ YUŞAVU: "XƏZƏR UNİVERSİTETİNİN AKADEMİK MÜHİTİNDƏN ZÖVQ ALIRAM"

***Xəzər Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin icra etdiyi "Xəzər və dünya" layihəsi Çərçivəsində universitetin birinci kurs magistr tələbəsi Abubakari Yuşavu ilə müsahibə***

Xəzər Universitetində Təhsilin idarəetməsi üzrə birinci kurs magistr tələbəsi Abubakari Yuşavu deyir: "Əgər Azərbaycanı bir cümlə ilə xarakterizə etməli olsaydım deyərdim ki, Azərbaycan hər zaman əlindən gələnin ən yaxşısını etməyə çalışan gözəl insanların gözəl ölkəsidir."

Abubakari əlavə edir: "Bəxtim gətirdi ki, Facebookda Xəzər Universitetinin təqaüd proqramı barədə elanı gördüm." Abubakarinin akademik göstəriciləri və təcrübəsi təhsil haqqı üçün tam təqaüd almağa imkan verirdi.

Abubakari qeyd edir ki, Xəzər Universitetinin akademik mühitindən zövq alıram. O deyir: "Dərs aldığım professorların əksəriyyəti çox dəstəkçi olur. Onların ofisinə baş çəkməklə təhsilim və apardığım tədqiqat barədə məsləhətləşə bilirəm və onlar bu işlərdə mənə məmnuniyyətlə kömək edirlər. Müəyyən mövzular üzrə anlayışımızı inkişaf etdirmək üçün qrup müzakirələri çox faydalıdır. Xəzər Universitetində təhsil almaq bəzən çətin olur, lakin təhsil keyfiyyətini nəzərə alsaq, buna dəyər".

Abubakari bu yaxınlarda "Sosial medianın magistr tələbələrinin təhsilinə təsiri" adlı tədqiqat işini tamamlayıb. Bu tədqiqat kurs işinin tərkib hissəsidir. O qeyd edir: "Təhsil məsələləri haqqında kəmiyyət tədqiqatları aparmaq xoşuma gəlir. Vətənim Qanada internet fırıldaqçılığının təhsilə təsiri barədə genişmiqyaslı tədqiqat aparmaq fikrindəyəm."

Bir çox əcnəbi tələbələr kimi Abubakari də Azərbaycandakı yeni həyata uyğunlaşma prosesində mədəni şok yaşayıb. O etiraf edir ki, onun Azərbaycandakı ilk həftəsi çox çətin olub. Abubakari deyir: "Bura ilk gələndə mən mədəni şok yaşadım. Mən salamlaşma üsulumu və jestlərimi dəyişməli oldum, çünki burda səhv anlaşılırdı. Mən ictimai nəqliyyatda xanımlara yer verməyi də öyrəndim." O gülərək belə qeyd edir: "Öyrəndiyim mühüm şeylərdən biri də odur ki, mən küçədə tanımadığım insanlara yaxınlaşıb onlarla söhbət edə bilmərəm. Mən buna bir dəfə cəhd etdim, amma reaksiya gözlədiyim kimi olmadı."

"Xəzər Universitetində bakalavr təhsilimi başa vurduqdan sonra doktorant təhsilimi burada tamamlamaq, karyeramı akademik sahədə davam etdirmək istəyirəm. Tədqiqat və müəllimlik mənim ən çox sevdiyim sahələrdir. Mən Qanada ali təhsil kurrikulumunun təkmilləşdirilməsində iştirak etmək istəyirəm. Qanada təhsil kurrikulumu real bazar ehtiyaclarına cavab vermir və məzunlara öz bacarıqlarına uyğun iş tapmaq çətindir. Bu problemlə məşğul olmaq lazımdı və mən özümü həll prosesinin tərkib hissəsi kimi görürəm" - deyə, Abubakari əlavə edir.

*Tərcümə:*
**Lalə Əliyeva,**
*İngilis dili və ədəbiyyatı departamentinin müəllimi*

*"Khazar and World"*

## ABUBAKARI YUSHAWU: "I ENJOY LEARNING ENVIRONMENT AT KHAZAR UNIVERSITY"

***An interview with the 1st year master student Abubakari Yushawu in frame of the "World and Khazar" Project Carried out by the International Affairs Office***



"If I had to characterize Azerbaijan in one sentence, I would say that Azerbaijan is a nice country of nice people who always want the best of everything," says Abubakari Yushawu, a first-year master student who currently pursues his degree in Educational Management at Khazar University.

"I was lucky enough to see the announcement for Khazar University scholarships on Facebook and I couldn't miss the chance to apply." Abubakari's academic achievements and experience qualified him for a full tuition fee waiver.

Abubakari says that he enjoys learning environment at Khazar University: "Most of the professors in my course are very supportive. I can consult them about my studies and research by visiting their offices, and they are very helpful in this regard. Class discussions are also very useful for developing our insight on specific topics. Studying at Khazar can be challenging from time to time, but it is worth it if the outcome is high quality education like we get here."

Abubakari has recently completed a research paper on "Impact of Social Media on Graduate Students' Learning Outcomes" as part of his coursework at Khazar University. "I like to do quantitative research addressing educational issues and plan to do a larger scale research on influence of internet fraud on education in Ghana, my home country."

Like many international students, Abubakari went through cultural shock while adjusting to his new life in Azerbaijan. He admits that his first weeks in Azerbaijan have been quite challenging: "I experienced some culture shock when I first arrived here. I had to change my greeting style and gestures as they were misunderstood here sometimes. I also learned to offer my seat to ladies in public transport." Abubakari recalls laughing: "One more important thing I learned here was that you should not just approach people in the street whom you do not know and talk to them. I tried it once and reaction was not what I expected."

"After graduating from Khazar University I am planning to pursue PhD studies and continue my career in academia. Research and teaching are my biggest passions and I'd love to participate in improving higher education curriculum in Ghana to develop it to be more in compliance with local labor market demands. Education in Ghana is based on a curriculum which does not reflect real market need and demands in the country and many graduates find it hard to find jobs corresponding to their skills. This problem should be addressed, and I see myself as part of solution" says Abubakari.

*Interview prepared by* **Lamiya Panahova**
*Coordinator at International Affairs Office*



# HORİZON-2020 LAYİHƏSİNİN İŞTİRAKÇILARI XƏZƏR UNİVERSİTETİNDƏ





Fevralın 14-də Xəzər Universiteti Tarix və arxeologiya departamentinin təşkilatçılığı ilə Horizon-2020 layihəsinin iştirakçıları ilə işgüzar görüş oldu. Görüşün əsas məqsədi akademik mədəniyyətlərin və elmi biliklərin mübadiləsinin təşkili, universitetlər arasında institutlararası beynəlxalq əməkdaşlığın yaradılması idi.

Qonaq qismində Qrats Universitetinin (Avstriya) müəllimi və cənub-şərqi Avropa tarixi və antropologiya üzrə mütəxəssis, Horizon - 2020 -"Biliyin mübadiləsi və akademik mədəniyyətlər, humanitar elmlərdə Avropa və Qara dəniz bölgəsi" layihəsinin layihə meneceri Dominik Gutmeyr, AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun şöbə müdiri, Horizon - 2020 layihəsənin Azərbaycan üzrə milli koordinatoru Zaur Həsənov, Batumi Dövlət Universitetinin (Gürcüstan) Tarix, arxeologiya və etnologiya departamentinin professoru, layihənin əməkdaşı Tamaz Putkaradze, AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Elmi ekspedisiya şöbəsinin elmi işçisi, layihənin əməkdaşı, həmçinin, Xəzər Universitetinin müəllimi Orxan Zamanov, AMEA Milli Azərbaycan Tarix Muzeyi Xarici əlaqələr və elmi-kütləvi iş şöbəsinin müdiri Emin Dadaşov, İngilis dili və ədəbiyyatı departamentinin baş müəllimi Firəngiz Nəsirova, Tarix və arxeologiya departamentinin müəllimi Ziya Səmədov, departamentin assistenti İlahə Yusifli görüşdə iştirak edirdilər.

Görüşü Tarix və arxeologiya departamentinin müdiri Roza Arazova açdı. O, elm sahəsində beynəlxalq əməkdaşlığın vacibliyini vurğuladı. Qonaqların çıxışından sonra layihənin həyata keçirilməsi ətrafında müzakirələr aparıldı.

UNI GRAZ

## PARTICIPANTS OF HORIZON-2020 PROJECT AT KHAZAR UNIVERSITY

On February 14, with the coordination of the Department of History and Archeology of Khazar University, a meeting with Horizon-2020 project participants was held. The main aim of the meeting was to facilitate the exchange of academic cultures and scientific knowledge and establish international cooperation between universities.

The meeting was attended by Dominik Gutmeyr, Instructor at Graz University, Expert on Southeast European History and Anthropology, Project Manager of "Knowledge Exchange and Academic Cultures in the Humanities. Europe and the Black Sea Region" project; Zaur Hasanov, Head of Department at the Institute of Archeology and Ethnography of ANAS and national coordinator of the Horizon 2020 for Azerbaijan; Tamaz Putkaradze, Professor of the Department of History, Archeology and Ethnology of Batumi State University (Associate Professor), project team member; Orkhan Zamanov, researcher at of the Scientific Expedition Department of the Institute of Archeology and Ethnography of ANAS and Instructor at Khazar University, project member; Emin Dadashov, Head of the Department of External Relations and Scientific- Mass Work of the National Museum of History of Azerbaijan of ANAS.

Moreover, Roza Arazova, Head of the Department of History and Archeology; Firangiz Nasirova, Head Instructor of the Department of English Language and Literature; Ziya Samadov, Instructor of Department of History and Archeology and Ilaha Yusifli, Assistant at the same department, attended the event.

Roza Arazova, Head of the Department of History and Archeology, made an opening speech and emphasized the importance of international relations in science. After the speech of the guests, discussions were held on the implementation of the project.

## "XƏZƏR"İN ƏMƏKDAŞLARININ MƏQALƏLƏRİ XARİCDƏ ÇAP OLUNUB

Xəzər Universitetinin Riyaziyyat departamenti yüksək impakt faktorlu jurnallarda universitet adından məqalə çapı istiqamətində fəaliyyətini davam etdirir. Son olaraq daha iki məqalə çapdan çıxmışdır. Bunlar aşağıdakılardır:

1.Deniz N.B. & Gahramanov I. Pentagon identities arising in supersymmetric gauge theory computations. // Theoretical and Mathematical Physics, volume 198, issue 2, 2019, pp. 214-224,

2.Shakhmurov V.B. & Sahmurova A. Mixed problems for degenerate abstract parabolic equations and applications. // Carpathian J. Math., volume 34, issue 2, 2018, pp. 247-254.

## KHAZAR UNIVERSITY STAFF PUBLISH ARTICLES ABROAD

The Department of Mathematics of Khazar University keeps publishing articles, on behalf of the University, in journals with high impact factor. Two more articles have recently been published. These articles are:

1.Deniz N.B. & Gahramanov I. Pentagon identities arising in supersymmetric gauge theory computations. // Theoretical and Mathematical Physics, volume 198, issue 2, 2019, pp. 214-224,

2.Shakhmurov V.B. & Sahmurova A. Mixed problems for degenerate abstract parabolic equations and applications. // Carpathian J. Math., volume 34, issue 2, 2018, pp. 247-254.

## TARİX VƏ ARXEOLOGİYA DEPARTAMENTİNİN MÜƏLLİMİ MÜSAHİBƏ VERDİ

2019-cu il fevralın 26-da Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müəllimi Telman Quliyev ( Nüsrətoğlu) Türkiyənin məşhur saytı olan *memleket.com.tr*-yə Xocalı soyqırımı ilə bağlı müsahibə verdi.

Müsahibəni bu link vasitəsilə oxumaq olar:

*http://www.memleket.com.tr/hocalidaki-vahset-direnisi-kirma-operasyonuydu-1664649h.htm*

## INSTRUCTOR AT THE DEPARTMENT OF HISTORY AND ARCHEOLOGY GIVES AN INTERVIEW

On February 26, 2019, Telman Guliyev (Nusratoghlu), Instructor at the Department of History and Archeology of Khazar University, gave an interview to a famous Turkish website, memleket.com.tr, with regard to Khojaly genocide.

The interview is available through the following link:

*http://www.memleket.com.tr/hocalidaki-vahset-direnisi-kirma-operasyonuydu-1664649h.htm*





# TEHRAN UNİVERSİTETİNİN NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

# MEETING WITH REPRESENTATIVE OF TEHRAN UNIVERSITY

Fevralın 14-də Tehran Universitetinin Aras beynəlxalq kampusunun nümayəndəsi Dr. Fərzad Qasemzadə Xəzər Universitetinin "Neftçilər" kampusunda oldu.

Görüşün məqsədi iki universitet arasında əməkdaşlıq imkanlarını, xüsusilə, tədqiqat və birgə təhsil proqramlarını müzakirə etmək idi. Görüşdə, eyni zamanda, doktorantların və əməkdaşların mübadiləsi, Xəzər Universitetinin diplomunun İranda tanınması və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olundu.

Görüşdə Xəzər Universitetindən rektor vəzifəsini icra edən dosent İradə Xəlilova, Tədris işləri üzrə prorektor professor Məhəmməd Nuriyev, İqtisadiyyat və menecment fakültəsinin dekanı Dr.Ceyhun Məmmədov, Magistratura, doktorantura və elmi tədqiqat bölməsinin koordinatoru Cabir Məmmədli, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Turan Cəfərova iştirak edirdilər.

Qeyd edək ki, iki universitet arasında Anlaşma Memorandumunun imzalanması gözlənilir.

On February 14, the representative of Aras International Campus of Tehran University Dr. Farzad Ghasemzadeh visited Khazar University's Neftchiler Campus.

The aim of the meeting was to discuss cooperation between the two universities, in particular, in research and joint programs. Participants of the meeting also discussed the exchange of PhD students and staff, recognition of Khazar University degrees in Iran, and other issues of mutual interest.

Khazar University staff members who participated in the meeting included Assoc. Prof. Irada Khalilova, Acting Rector, Prof. Mahammad Nuriyev, Vice-Rector for Academic Affairs, Dr. Jeyhun Mammadov, Dean of the School of Economics and Management, Mr. Jabir Mammadli, Coordinator of Division of Graduate Studies and Research, and Ms. Turan Jafarova, Director of International Affairs Office.

A Memorandum of Understanding will soon be signed between the two universities.



# BRİTİSH COUNCİL İLƏ ƏMƏKDAŞLIĞIN PERSPEKTİVLƏRİ MÜZAKİRƏ OLUNDU

# PERSPECTIVES OF THE COOPERATION WITH BRITISH COUNCIL DISCUSSED

Fevralın 15-də British Council Azərbaycanın nümayəndələri Xəzər Universitetinin "Neftçilər" kampusunda oldular.

Görüşün məqsədi Xəzər Universiteti və British Council arasında əməkdaşlığın perspektivlərini müzakirə etmək idi. Görüşdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, rektor vəzifəsini icra edən dosent İradə Xəlilova, İnkişaf mərkəzinin direktoru Raziyə İsayeva və Beynəlxalq əlaqələr şöbəsinin müdiri Turan Cəfərova iştirak edirdilər. British Councilun direktoru Samr Şah, direktor müavini Nigar Bayramova və imtahan xidmətləri meneceri Nərgiz Əkbərova təmsil edirdilər.

Görüşü açan professor Hamlet İsaxanlı Samr Şahı Xəzər Universitetində salamladı və ona yeni vəzifəsində uğurlar arzuladı. Professor İsaxanlı, həmçinin, Xəzər Universiteti ilə British Council arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu vurğuladı, bu əməkdaşlığın daha da güclənərək, davam edəcəyinə inandığını bildirdi.

Öz növbəsində, Samr Şah British Council Azərbaycanın həyata keçirdiyi proqramlar haqqında məlumat verdi və universitetin bu proqramlardan necə yararlana biləcəyi haqqında danışdı.

Görüşün sonunda professor Hamlet İsaxanlı özünün müəllifi olduğu "Xəzərin sorağında" adlı kitabını Samr Şaha təqdim etdi. Kitabda Xəzər Universitetinin yaradılma tarixindən bəhs olunur.

On February 15, representatives of the British Council Azerbaijan visited Khazar University's Neftchiler Campus.

The goal of the meeting was to discuss cooperation between Khazar University and the British Council. Participants of the meeting from Khazar University included Founder of Khazar University, Chairman of its Board of Directors and Trustees Prof. Hamlet Isakhanli, Acting Rector Assoc. Prof. Irada Khalilova, Development Director Ms. Raziya Isayeva, and Director of International Affairs Office Ms. Turan Jafarova. British Council was represented by Mr. Summer Xia, Director, Ms. Nigar Baimova, Deputy Director, and Ms. Nargiz Akbarova, Examination Services Manager.

Prof. Hamlet Isakhanli opened the meeting by welcoming Mr. Summer Xia at Khazar University and wishing him good luck in his new appointment. Prof. Isakhanli emphasized close cooperation between Khazar University and the British Council and expressed hopes that this partnership will continue and strengthen.

Mr. Summer Xia informed the meeting participants about the programs run by the British Council and how the university could benefit from them.

At the end of the meeting, Prof. Hamlet Isakhanli presented his book entitled "In Search of Khazar" to Mr. Summer Xia. The book is dedicated to the history of establishment of Khazar University.




# TARİX VƏ ARXEOLOGİYA DEPARTAMENTİNİN MÜƏLLİMİNƏ PROFESSOR ELMİ ADI VERİLDİ

# INSTRUCTOR AT THE DEPARTMENT OF HISTORY AND ARCHEOLOGY GRANTED ACADEMIC RANK

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasında attestatların təqdim olunması mərasimi keçirilmişdir. Mərasimdə Xəzər Universiteti Tarix və Arxeologiya departamentinin müəllimi Habil Məmmədova da professor attestatı təqdim olunmuşdur.

Habil Məmmədova professor elmi adı Ali Attestasiya Komissiyasının 18 dekabr 2018-ci il tarixli qərarı ilə verilmişdir.

Attestation presentation ceremony was held at the Supreme Attestation Commission under the President of the Republic of Azerbaijan. At the ceremony, Habil Mammadov, Instructor at the Department of History and Archeology, was granted Professor, an academic rank.

Habil Mammadov was granted this title by the decision of the Supreme Attestation Commission, dated 18 December, 2018.

# XƏZƏR UNİVERSİTETİNİN MÜƏLLİMLƏRİ DOSENT ATTESTATI ALDILAR

# KHAZAR UNIVERSITY INSTRUCTORS PRESENTED WITH ATTESTAT OF ASSOC.PROF.







Fevralın14-də respublikada yüksək ixtisaslı elmi və elmi-pedaqoji kadrların attestasiyası sahəsində vahid dövlət orqanı olan Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attaestasiya Komissiyasının növbəti iclası keçirilmişdir. Xəzər Universitetinin Dillər və ədəbiyyatlar departamentinin müəllimləri fil.ü.f.d. Qətibə Quliyevaya "Türk dilləri" ixtisası üzrə, fil.ü.f.d. Xatirə Yusifovaya isə "Azərbaycan ədəbiyyatı" ixtisası üzrə Ali Attestasiya Komissiyas tərəfindən dosent attestatı təqdim edilmişdir.

On February 14, the next meeting of Supreme Attestation Commission under the President of the Republic of Azerbaijan, a state body entitled to certify highly qualified scientific and scientific-pedagogical workers in the country, was held. PhD in Philology Gatiba Guliyeva and PhD in Philology Khatira Yusifova, instructors at the Department of Languages and Literature of Khazar University, were presented with Attestat of Assoc. Prof., respectively on specialties of "Turkish Languages" and "Azerbaijan Literature".



# BEYNƏLXALQ ƏLAQƏLƏR ŞÖBƏSİNDƏ "MEVLANA - AÇIQ QAPI" SESSİYASI

# "MEVLANA OPEN DOOR" SESSION HELD AT INTERNATIONAL AFFAIRS OFFICE

Fevralın 20-də Xəzər Universitetinin Beynəlxalq əlaqələr şöbəsində "Mevlana - açıq qapı" sessiyası keçirildi. Mevlana proqramı vasitəsilə Türkiyədə mübadilə semestrini yenicə tamamlayıb qayıtmış Xəzər Universitetinin tələbələri, eləcə də, hazırda Xəzər Universitetində Mevlana mübadilə proqramı vasitəsilə təhsil alan tələbələr sessiyada iştirak edərək, öz təcrübələrini digər tələbələrlə bölüşdülər. Onlar, həmçinin, yoldaşlarının Türkiyədə təhsil və Türkiyə universitetləri haqqında suallarını cavablandırdılar.

Aytac Ağayeva (mühasibat uçotu və audit, bakalavr), Danu Ade Setiavan (bank işi, magistr) və Məryəm Adli (biznesin idarə edilməsi, magistr) Mevlana mübadilə proqramı vasitəsilə Türkiyədə mübadilə təhsili alaraq, yenicə Xəzər Universitetinə qayıtmış və öz təhsillərini davam etdirirlər. Onlar tələbələrə Türkiyədə yaşamaq, eləcə də, orada həyata adaptasiya olmaq barədə faydalı məsləhətlər verdilər. Xəzər Universiteti və Türkiyə universitetləri arasındakı fərqlərdən danışdılar.

İhsaniye Yıldırım (beynəlxalq münasibətlər, bakalavr) və Ayşenur Kurt (biznesin idarə edilməsi, bakalavr) hazırda Xəzər Universitetində mübadilə proqramı vasitəsilə təhsil alırlar və Selçuk Universitetinin tələbələridirlər. Onlar da Mevlana proqramına müraciət etməyə hazırlaşan tələbələrlə öz ölkələri haqqında biliklərini paylaşdılar. Onlar, həmçinin, Azərbaycanda və Xəzər Universitetində təcrübələri haqqında rəylərini bölüşdülər.

Sessiyanın nəticəsi olaraq, tələbələr Mevlana mübadilə proqramı və Türkiyədə təhsil haqqında faydalı və praktiki məlumatlar əldə etmiş oldular.

On February 20, Mevlana Open Door session was held at Khazar University International Office. Khazar University students who have just completed their exchange semester in Turkey and Khazar's current Mevlana exchange students from Turkey shared their experiences with other students participating in the session. They also answered questions of their peers about studying in Turkey and Turkish Universities.

Aytaj Agayeva (BA in Accounting and Audit), Danu Ade Setiawan (MBA in Banking), and Maryam Adli (MBA) have studied in Turkey within Mevlana Exchange Program and are now back to Khazar to continue their studies. They gave the students useful tips about living in Turkey and adapting to the life there. They also explained differences between the studies here and in Turkey.

Ihsaniye Yildirim (BA in International Relations) and Aysenur Kurt (BBA) are Khazar's current exchange students from Selcuk University and they shared their knowledge about their home country with students who are planning to apply through Mevlana this year. They also expressed their opinions about living in Azerbaijan and studying at Khazar University.

As a result of the session students received useful and practical information about Mevlana exchange program and studying in Turkey.



# ALİ TƏHSİL OCAĞINDA İXTİSASARTIRMA KURSU

NDU-da fizika, kimya və biologiya fənlərini tədris edən müəllimlər üçün ixtisasartırma kursu təşkil olunub.

Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov universitetdə tədris üçün yaradılan yüksək şəraitdən, elmdə və təhsildə qazanılan uğurlardan söhbət açıb. Qeyd olunub ki, ali və orta ümumtəhsil məktəbləri ilə belə əlaqəli tədbirlər bilik və təcrübə mübadiləsi, gələcək pedaqoji fəaliyyət prinsiplərinin düzgün müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Belə seminarların gələcəkdə daha mütəşəkkil təşkili, əməkdaşlığın daha sıx davamı baxımından əhəmiyyətlidir.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov ümumtəhsil məktəblərində dəqiq elmlərin tədrisinin inkişafına, müəllimlərin peşə hazırlıqlarının yüksəldilməsinə, şagirdlərin bu sahədəki bilik və qabiliyyətlərinin artırılmasına xüsusi diqqət və qayğı göstərildiyini vurğulayıb. Nəzərə çatdırılıb ki, muxtar respublikanın məktəblərinin, demək olar ki, hamısı müasir laboratoriyalarla təchiz olunub və dərs prosesi zamanı laboratoriyaların istifadə qaydaları şagirdlərə izah olunur.

Naxçıvan Dövlət Universiteti və Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin birgə əməkdaşlığı ilə muxtar respublika üzrə ümumtəhsil məktəblərinin fizika, kimya və biologiya müəllimləri üçün 4 günlük təşkil olunan kursda hər ixtisasdan 20 nəfər olmaqla ümumilikdə 60 nəfər müəllim iştirak edib.

Müəllimlərə universitetin müəllimləri - kimya üzrə fəlsəfə doktoru, dosent Şəmil Mahmudov, fizika üzrə fəlsəfə doktoru, dosent Əli Babayev, biologiya üzrə fəlsəfə doktoru, dosent Daşqın Qənbərov seminar keçiblər. Eyni zamanda, universitetdə mövcud olan laboratoriya və fənn kabinələrinin istifadə qaydalarından da bəhs edilib.

Kursun sonuncu günü iştirakçılara sertifikat təqdim olunub.

Sertifikat alan müəllimələrdən Şahbuz rayonu Nursu kənd orta məktəbində fizika fənnini tədris edən Lalə Zeynalova və Babək rayonu Xəlilli kənd orta məktəbində kimya fənnini tədris edən Lamiyə Əliyeva yaradılan şəraitə görə öz minnətdarlıqlarını bildiriblər.

**Badəm Məmmədova,**
*NDU-nun Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı*



## "GƏNCLƏRDƏ BÜDCƏ SAVADLILIĞI" MÖVZUSUNDA TƏLİM

NDU-da Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzinin "Gənclərdə büdcə savadlılığı" adlı təlimi keçirilib.

Beynəlxalq.İnfo xəbər verir ki, universitetin magistratura üzrə dekanlığında keçirilən tədbiri giriş sözü ilə açan universitetin elmi katibi, riyaziyyat üzrə fəlsəfə doktoru, dosent Məftun İsmayılov Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2015-ci il 27 iyul tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamını diqqətə çatdırıb. Bildirilib ki, tələbələrin bu layihə çərçivəsində keçirilən tədbirlərdə iştirakı, onların təlim məşğələlərində müvafiq bilik və bacarıqlar əldə etmələri ilə yanaşı, ümumi dünyagörüşlərinin genişlənməsinə, müasir informasiya cəmiyyətində tələb olunan səviyyədə hərtərəfli məlumata sahib olmalarına köməklik göstərir.

Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzinin direktoru, iqtisad üzrə fəlsəfə doktoru Sevinc Cabbarova "Mühasibat uçotu və audit", "İqtisadiyyat", "Menecment", "Dünya iqtisadiyyatı" ixtisasları üzrə 80-dən çox tələbənin cəlb olunduğu təlim haqda ətraflı məlumat verərək, keçirilən layihənin əhəmiyyətindən danışıb.

**Səadət Əliyeva,**
*NDU-nun Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri*

## NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNDƏ XOCALI FACİƏSİNƏ HƏSR OLUNMUŞ İNTERNET AKSİYASI KEÇİRİLİB

NDU-nun Beynəlxalq münasibətlər və Xarici dillər fakültəsində Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar internet aksiya keçirilib.

Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov bu qanlı soyqırımın tarixinə nəzər salaraq, erməni vəhşiliyindən, Xocalıda soydaşla-rımızın başına gətirilən müsibətlərdən danışıb. Vurğulanıb ki, bütövlükdə Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz qəddarlığı ilə bəşər tarixində tayı-bərabəri olmayan bir vəhşilik aktıdır. Bu soyqırım, eyni zamanda bəşəriyyətə qarşı tarixi bir cinayətdir.

Universitet Tələbə Gənclər Təşkilatının sədri Zümrüd Səfərova internet aksiyanın keçirilməsinin məqsəd və vəzifələri haqqında məlumat verib, tələbələri aksiyada fəal iştiraka dəvət edib.

Sonra aksiyaya start verilib. Dörd saat davam edən aksiyada yerli və xarici tələbələrin iştirakı ilə dünyanın 100-dən çox ən tanınmış ali məktəbinin elektron ünvanına ingilis, fransız, alman, rus və fars dillərində Xocalı həqiqətlərini əks etdirən məlumatlar göndərilib. Edilən müraciətlərin əksəriyyəti cavablandırılıb.

***Səadət Əliyeva***
*NDU-nun Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri*

# TURİZM VƏ OTELÇİLİK İXTİSASI TƏLƏBƏLƏRİNİN "ANA HARAYI" ABİDƏSİNƏ YÜRÜŞÜ

# VISIT OF THE STUDENTS MAJORING IN TOURISM AND HOTEL MANAGEMENT TO KHOJALY GENOCIDE MEMORIAL

Fevralın 24-də Xəzər Universitetinin İqtisadiyyat və menecment departamentinin müəllimləri –Dr. Kamran Behbudov və Dr. Qəhrəman Yusupovun rəhbərliyi ilə turizm və otelçilik ixtisasının 24 tələbələsi, həmçinin, Mevlana mübadilə proqramı ilə ölkəmizdə qısa müddətlik təhsil alan Türkiyə Respublikasındakı universitetlərdən gələn tələbələrin iştirakı ilə "Ana harayı" abidəsinə yürüş həyata keçirildi.

Tədbirdə tələbələrə 1992-ci il fevralın 26-da erməni quldur dəstələrinin və hərbi-cinayətkar qruplaşmanın Azərbaycan xalqına qarşı törətdiyi Xocalı Soyqırımı, bu soyqırımda dünyasını dəyişən, itkin düşən şəxslər haqqında məlumat verildi və Xocalı Soyqırımının ölkədaxili və beynəlxalq miqyasda tanınması üçün aparılan və gələcəkdə aparılması vacib olan işlər haqqında müzakirə baş tutdu. Həmçinin, bir qrup tələbə Xocalı ilə bağlı hazırladıqları məlumatlarla tədbir iştirakçıları qarşısında çıxış etdi. Tədbirin sonunda tələbələr hazırladıqları və üzərində "Justice for Khocaly" və "Susma" şüarları yazılan ağzı qapayan nəfəslikdə Xocalı həqiqətlərinin tanınması və beynəlxalq ictimaiyyətin diqqətinin bu soyqırıma cəlb edilməsi üçün həm ingilis, həm də Azərbaycan dillərində çağırış etdilər.

On February 24, under the guidance of Dr.Kamran Behbudov and Dr.Gahraman Yusupov, Instructors at the Department of Economy and Management, 24 students majoring in Tourism and Hotel Management and Turkish students studying in Azerbaijan within Mevlana exchange program went on a march to the Khojaly genocide memorial.

At the event, the students were informed about the Khojaly genocide committed against the Azerbaijani people on February 26, 1992, as well as people killed and became missing during the massacre. Moreover, participants also discussed the measures which are supposed to be taken for the Khojaly genocide to be recognized internationally. Also, a group of students made presentations on the Khojaly tragedy. At the end of the event, sounded "Justice for Khojaly" and "Susma", both in English and Azerbaijani, to call for the recognition of the Khojaly genocide and draw the international community's attention to this genocide.

# TRT AVAZ TELEKANALI PROFESSOR HAMLET İSAXANLIDAN MÜSAHİBƏ ALMIŞDIR

# PROF. HAMLET ISAKHANLI GIVES INTERVIEW TO TRT AVAZ TV CHANNEL

2019-cu il fevralın 25-də TRT Avaz telekanalı Xəzər Universitetinin təsisçisi, Diektorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlıdan Xocalı faciəsinin 27-ci ildönümü münasibətilə müsahibə almışdır. Professor Hamlet İsaxanlı ermənilərin Xocalıda törətdiyi soyqırımdan bəhs etmiş, mahiyyətini açıqlamışdır.

On February 25, 2019, Prof. Hamlet Isakhanli, Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, gave an interview to TRT Avaz TV channel about the Khojaly tragedy. Prof. Hamlet Isakhanli commented on the essence of massacre committed by Armenians.




# XOCALI SOYQIRIMI AZƏRBAYCAN-TÜRKİYƏ İŞ ADAMLARI BİRLİYİNDƏ YAD EDİLDİ

# KHOJALY GENOCIDE COMMEMORATED AT AZERBAIJAN TURKEY BUSINESS ASSOCIATION

Fevralın 23-də Azərbaycan-Türkiyə İş Adamları Birliyi (ATİB) Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar Türkiyə Səfirliyinin Nuru Paşa salonunda anım mərasimi keçirdi. Əvvəlcə Xocalıda həlak olmuş insanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. ATİB İdarə Heyətinin sədr müavini Avni Dəmirçi 1992-ci ilin fevralın 25-dən 26-na keçən gecə Xocalıda yaşanmış XX əsrin ən böyük faciəsi haqqında geniş məlumat verdi.

Anım mərasimində Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral, Bakı Dövlət Universitetinin dosenti Boran Əziz, Anadolu Universitetinin dosenti Mehmet Topal və digərləri çıxış edərək, o gecə Xocalıda yaşanan dəhşətlərdən danışdılar.

Anım mərasimində Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı geniş məruzə ilə çıxış edərək, son yüz ildə Azərbaycan türklərinə qarşı törədilən cinayətlərdən, həmçinin, 27 il bundan öncə erməni qəsbkarları və onların himayədarları tərəfindən vəhşicəsinə həyata keçirilən Xocalı faciəsindən danışdı. H.İsaxanlı təəssüflə qeyd etdi ki, hələ də bu günə kimi Xocalı Soyqırımına siyasi və hüquqi qiymət verilməmişdir.

Anım mərasimində Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru Ələvsət Əmirbəyli iştirak edirdi.

On February 23, Azerbaijan Turkey Business Association (ATBA) had a memorial ceremony at Nuru Pasha Hall of Turkish Embassy to commemorate the 27th anniversary of The Khojaly genocide. First, the memory of those killed in Khojaly was commemorated with a minute of silence. Avni Damirchi, Deputy Chairman of ATIB Board of Directors, gave extensive information about the Khojaly genocide, one of the greatest tragedy of the 20th century committed overnight of February 25 and 26, 1992.

Erkan Ozoral, Turkish Ambassador to Azerbaijan; Boran Aziz, Assoc. Prof. at Baku State University; Mehmet Topal, Assoc. Prof. at Anadolu University, and others delivered speeches and emphasized the adversity happened in Khojaly.

Prof. Hamlet Isakhanli, Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, delivered a report about the crimes committed against Azerbaijani Turks over the past century as well as Khojaly genocide which was brutally carried out 27 years ago by Armenian invaders. He also expressed his regret that the tragedy has not yet been assessed on a political and legal base.

Alovsat Amirbayli, Director for Public Relations and Media, also participated at the event.

# XOCALI FACİƏSİNİN İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ TƏDBİR

# EVENT ON THE ANNIVERSARY OF KHOJALY TRAGEDY

Fevralın 25-də Xəzər Ubiversitetinin Mərmər salonunda universitetin Tarix və arxeologiya departamentinin təşkilatçılığı ilə Xocalı faciəsinin ildönümü münasibətilə tədbir keçirildi. Tədbirdə univer-sitetin rəhbərliyi, əməkdaşları və tələbələr, elmi ictimaiyyətin nümayəndələri, Türkiyə Cümhuriyyətinin Azərbaycan Respublikasındakı səfirliyinin əməkdaşları, Türkiyənin TRT və TRT Avaz telekanallarının mənsubları iştirak edirdilər.

Tədbir Xocalı faciəsinə həsr olunmuş filmin nümayişi ilə başladı, Xocalı faciəsində həlak olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Tədbiri Xəzər Universitetinin müəllimi, tarix elmləri doktoru, professor Nəsiman Yaqublu açaraq, sözü Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlıya verdi. Professor geniş çıxışında Xocalı faciəsinə tarixi aspektdə yanaşaraq, erməni siyasətçilərinin "Böyük Ermənistan" xülyasını gerçəkləşdirmək yolunda ardıcıl olaraq Türkiyəyə və Azərbaycana qarşı törətdikləri soyqırım hadisələrindən danışdı və belə cinayətlərin beynəlxalq tribunallar tərəfindən cəzalandırıldığı halda Xocalı faciəsinə onların laqeydliyini müasir dünyada hökm sürən ikili standartlarla əlaqələndirdi.

Türkiyə Cümhuriyyətinin Azərbaycan Respublikasındakı səfirliyinin təhsil işləri üzrə müşaviri Mahmut Ağrıman çıxışında ermənilərin Türkiyədə törətdikləri soyqırımlardan danışdı, Xocalı faciəsinin Türkyə türkləri tərəfindən də öz faciələri kimi daim yad edildiyindən və bu faciəni əks etdirən memoriallların ucaldılmasından danışdı.

Professor Nəsiman Yaqublu "Xocalı soyqırımının tarixi", Xəzər Universitetinin müəllimi, tarix elmləri doktoru Telman Nüsrətoğlu "Erməni terror təşkilatlarının Osmanlının şərq vilayətlərində törətdikləri soyqırımlar", Xəzər Universitetinin müəllimi, fəlsəfə doktoru Kamran Behbudov "Xocalı soyqırımına hüquqi qiymətləndirmə" mövzularında çıxış etdilər. Xəzər Universitetinin müəllimi, siyasi elmlər doktoru Hatəm Cabbarlı ermənilərə qarşı müharibədə iştirakından danışdı.

Sonda professor Hamlet İsaxanlı, Türkiyə səfirliyinin təhsil işləri üzrə müşaviri Mahmut Ağrıman və professor Nəsiman Yaqublu tələbələrin suallarını cavablandırdılar.

TRT və TRT Avaz telekanalları tədbirdən çəkiliş apardılar. TRT telekanalının Bakı təmsilçiliyinin müdiri Murat Akkoç tədbirdə iştirak edirdi.

Türkiyənin xəbər saytları tədbir haqqında xəbər yaymışlar:

*https://www.haberler.com/hocali-katliami-nin-27-yili-11778863-haberi/*

*https://www.haberlerdenevar.com/Benzer-Haberler/İnsanık_tarihinin_kara_lekesi_Hocalı_Katliam*

On February 25, with the coordination of the Department of History and Archaeology of Khazar University, an event dedicated to the anniversary of Khojaly tragedy was held at "Marble" hall of the University. The event was attended by the administration, staff and students of the University, community members, associates of Turkish Embassy in Azerbaijan, and reporters of the TRT TV channel, Turkey.

The event started with demonstration of a movie about Khojaly tragedy, and people killed in the tragedy were commemorated with a minute of silence.

Prof. Nasiman Yagublu, D.Sc.in History and Instructor at Khazar University, made an opening speech and gave the floor to Prof. Hamlet Isakhanli, Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees. Delivering a comprehensive speech, Hamlet Isakhanli talked about genocide acts committed by Armenian politicians against Turkey and Azerbaijan in the pursuit of the "Greater Armenia" dream. He blamed double standards in the modern world for indifference to the Khojaly tragedy where such crimes are punished by international tribunals.

Mahmut Aghriman, Advisor on Educational Affairs of the Embassy of the Republic of Turkey in the Republic of Azerbaijan, talked about the genocides committed by Armenians in Turkey. He also mentioned that Turkish people regard Khojali genocide as their own calamity erecting memorials in honour of the tragedy.

Moreover, the following reports were made at the event: "History of Khojali genocide" by Prof. Nasiman Yagublu; "The genocides committed by Armenian terrorist organizations in eastern provinces of the Ottoman Empire" by Telman Nusratoghlu, D.Sc.in History and Instructor at Khazar University; "Legal assessment of Khojaly genocide" by PhD Kamran Behbudov, Instructor at Khazar University. Hatam Jabbarli, D.Sc. in Political Science and Instructor at Khazar University, talked about his participation in the war against Armenians.

At the end, Prof.Hamlet Isakhanli, Mahmut Aghriman, Advisor on Educational Affairs of the Embassy of the Republic of Turkey in the Republic of Azerbaijan, and Prof. Nasiman Yagublu had welcoming questions from students.

TRT and TRT Avaz channels took the footage of the event. Murat Akkoch, Head of the Baku office of the TRT channel, participated at the even.

News about the Event Posted on Turkish News Portals:

*https://www.haberler.com/hocali-katliami-nin-27-yili-11778863-haberi/*

*https://www.haberlerdenevar.com/Benzer-Haberler/İnsanık_tarihinin_kara_lekesi_Hocalı_Katliam*


KHA










Xəzər Universiteti
1991
BAKI





# "XƏZƏR"İN ƏMƏKDAŞLARI ÖLKƏ VƏ XARİCİ SİMPOZİUMLARDA

## KHAZAR UNIVERSITY STAFF AT LOCAL AND INTERNATIONAL SYMPOSIUMS

***

2018-ci il dekabrın 3-dən 7-dək "Hermeir College"-in və "Autism Medical Institute"-un birgə təşkilatçılığı ilə Kosovada 1-ci Beynəlxalq Autizm Konfransı keçirildi. Konfransda Azərbaycanla yanaşı Türkiyə, Niderland, Serbiya, Kosova, İsveçrədən autism üzrə mütəxəssislər iştirak edirdilər. Konfransda Azərbaycandan **Xəzər Universitetinin Psixologiya departamentinin müəllimi Kəmalə Əliyeva** (dissertant) "Autism and learning process" adlı məruzəsi ilə iştirak edirdi. Konfransda autizmdə təlim və medikal yanaşmalar müzakirə olundu. Xəzər Universiteti ilə yanaşı konfransda Glasgow Universitetindən J.Aitcken, "World Health Foundation"-dan professor E.Vogelaar, "Hermier College"-dən professor B.Radic, "Autism Medical Institute"-dən dosent doktor C.-Kınacı və "Union Health Terapijaki"-dən D.Helc öz məruzələri ilə çıxış etdilər.

Qeyd edək ki, K.Əliyeva 2015-ci ildən Türkiyə "Autism Medical Center"-in üzvüdür.

On December 3 and 7, 2018, Hermeir College and Autism Medical Institute co-organized the first International Autism Conference in Kosovo. Experts from Australia, Turkey, the Netherlands, Serbia, Kosovo, and Sweden attended the conference. With a report "Autism and learning process", **Kamala Aliyeva (PhD candidate), Instructor of the Department of Psychology of Khazar University**, represented Azerbaijan in the conference. Further reports were also made by J. Aiteken from Glasgow University, Prof. E.Vogelaar from World Health Foundation, Prof. B. Radic from Hermier College, Assoc. Prof. C. Kinaji from Autism Medical Institute and D. Helc from Union Health Terapijski. Learning with autism and medical approaches were discussed at the conference.

K. Aliyeva became a member of Turkey "Autism Medical Center" in 2015.

***




2018-ci il dekabrın 15-də Azərbaycan Tibb Assosiasiyasının (ATA) Pediatriya və Ginekologiya dərnəkləri və PM Akademiya Psixoloji Xidmət və Uşaq İnkişaf Mərkəzinin birgə təşkilatçılığı ilə "Reproduktiv sağlamlıq: tibbi və psixoloji aspektlər" adlı 1-ci milli konfrans keçirildi. Konfransda **Psixologiya departamentinin koordinatoru, Xəzər Psixoloji Xidmət Mərkəzinin direktoru Mələk Kərimova** da məruzəçi kimi dəvət olunaraq, "Ailə münasibətlərində mənəvi-estetik dəyərlər" mövzusunda çıxış etdi.

Konfransda iştirak edən mütəxəssislərə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Elmi Tibbi Şurası tərəfindən təsdiqlənmiş Davamlı Tibbi Təhsil üzrə kredit saatlar nəzərə alınmaqla sertifikatlar təqdim edildi.

On December 15, 2018, Pediatric Society of Azerbaijan Medical Association (AMA), PM Academy of Psychological Services and Child Development Center, and Gynecology Society of Azerbaijan Medical Association (AMA) co-organized first national conference "Reproductive Health: Medical and Psychological Aspects". **Malak Karimova, Coordinator of the Department of Psychology and Director of Khazar Psychological Service Center,** also delivered a report at the conference.

Experts participating at the conference were certified on Continuous Medical Education based on credit hours approved by Scientific Medical Council of the Ministry of Health of the Republic of Azerbaijan.

***

***

2018-ci il dekabrın 21-də Lənkəran Dövlət Universitetində (LDU) "İnteqrasiya mühitində Azərbaycan elminin qarşısında duran vəzifələr" mövzusunda gənc tədqiqatçıların (magistrant və doktorant) respublika elmi konfransı keçirildi. Konfransda "İnteqrasiya mühitində Azərbaycan ali təhsilində innovasiyalar" məruzəsi ilə **Təlim və Tədris Mərkəzinin direktoru Ülkər Bayramova** (dissertant), "Noam Xomskinin sintaktik təlimində üst qat təhlili" məruzəsi ilə **Humanitar və sosial elmlər fakültəsinin dekan müavini Validə Kərimova** (doktorant) və "Xüsusi qayğıya ehtiyacı olan uşaqların yaşıdları ilə birgə təhsilinin vacibliyi" məruzəsi ilə fakültənin **Psixologiya departamentinin müəllimi Kəmalə Əliyeva** (dissertant) çıxış etdilər.

Keçirilən beynəlxalq konfransda ölkədə təhsilin inkişafı istiqamətində görülən işlərin və bu sahədə qazanılan uğurların, gənc tədqiqatçıların elmi işlərə cəlb edilməsinin, elmin inkişafı üçün gənclərin elmə həvəs göstərmələrinin, elmi tədqiqatlar aparmağa marağın artmasının müsbət hal olduğu qeyd edildi.

Rəsmi hissədən sonra konfrans işini bölmələrdə davam etdirdi. Müxtəlif bölmələr üzrə bütövlükdə 120-dən artıq çıxış dinlənilərək, müzakirə olundu. Konfransın sonunda iştirakçılara sertifikat təqdim edildi.

On December 21, 2018, national scientific conference "Objectives Azerbaijani science faces in the period of integration" for young researchers (Master's students and PhD candidates) took place in Lankaran State University. Khazar University associates delivered the following reports in the conference: "Innovations in higher education in the period of integration" by **Ulkar Bayramova (PhD candidate), Director of the Center for Training**; "Upper layers of the sentence in N. Comsky's syntactic study" by **Valida Karimova (PhD candidate), Vice-dean of the School of Humanities and Social Sciences**; "The importance of inclusive education for children with special needs" by **Kamala Aliyeva (PhD candidate), Instructor of the School of Psychology**. In the conference, speakers emphasized the educational reforms and achievements and underlined the importance of involving and encouraging the youth in researches.

After a formal part, the conference continued in sectional meetings. More than 120 reports were delivered and discussed in various sections. At the end, participants were certified.

***



2018-ci il dekabrın 23-də Psixologiya Elmi-Tədqiqat İnstitutunda Tələbə Psixoloqların I Ümumrespublika Konfransı keçirildi. Maraqlı müzakirələr və təlimlərlə yadda qalan konfransda Xəzər Universiteti Psixologiya departamentinin koordinatoru, **Xəzər Psixoloji Xidmət Mərkəzinin direktoru psixoloq Mələk Kərimova** "Düşüncələrimiz bizimlə necə oynayır?" mövzusunda maraqlı təlim keçirdi. M.Kərimova tədbirdə, eyni zamanda, Xəzər Universiteti Psixologiya departamenti ilə əlaqədar məlumat verərək, departamentin bu sahədəki fəaliyyətlərindən də bəhs etdi. Tədbirin sonunda Psixologiya Elmi-Tədqiqat İnstitutunun rəhbəri Elmur Rüstəmov Mələk Kərimovaya plaket təqdim edərək, təşəkkürünü bildirdi.

On December 23, 2018, First National Conference of Student Psychologists took place at the Institute of Psychological Research. The conference was distinguished with interesting debates and trainings. **Malak Karimova, Coordinator of the Department of Psychology and Director of Khazar Psychological Service Center**, conducted a training "How our thoughts play with us?". Moreover, M. Karimova gave information about the Department of Psychology of Khazar University and its achievements. At the end of the conference, Elnur Rustamov, Director of the Institute of Psychological Research presented Malak Karimova with a plaque and expressed his gratitude.

***




# DOKTORANTIN DİSSERTASİYASININ İLKİN MÜZAKİRƏSİ OLDU

# PRE-DEFENSE OF PHD DISSERTATION HELD

Yanvarın 24-də Xəzər Universiteti Azərbaycan dili və ədəbiyyatı departamentinin doktorantı Qardaşxan Əzizxanlının "Azərbaycan poeziyasında vətəndaşlıq lirikası (M.Araz, S.Tahir AzərAzər, M. İsmayıl yaradıcılığı)" mövzusunda yazdığı dissertasiya işinin ilkin müzakirəsi keçirildi.

Müzakirənin keçirildiyi şuranın iclasını Azərbaycan dili və ədəbiyyatı departamentinin əməkdaşı dosent Dilbər Zeynalova (sədr) açdı, müzakirə iclasının qaydalarını izah etdi. Sonra söz iddiaçıya verildi.

Daha sonra dissertasiya işi ətrafında müzakirələr oldu. Q.Əzizxanlının elmi rəhbəri professor Bədirxan Əhmədov, Xəzər Universiteti Magistratura, doktorantura və elmi işlər bölməsinin koordinatoru Cabir Məmmədli və iclasda iştirak edən digər elm adamları müzakirələrə qoşuldular.

Sonda Qardaşxan Əzizxanlının elmi işinin növbəti mərhələyə keçirilməsinə qərar verildi.

On January 24, 2019, a dissertation "Citizenship lyrics in Azerbaijani poetry (Creativities of M. Araz, S.Tahir AzarAzar, M.Ismayil) by Gadashkhan Azizkhanli, PhD candidate of the Department of Azerbaijani Language and Literature, was initially discussed.

Assoc.Prof. Dilbar Zeynalova (Chair), Coordinator at the Department of Azerbaijani Language and Literature, opened the discussion meeting and explained the rule for the discussion. Then she gave the floor to the candidate.

After the presentation of the candidate, the dissertation was discussed. Prof.Badirkhan Ahmadov, Advisor of G.Azizkhanli, Jabir Mammadli, Coordinator at the Division for Graduate Students and Research, and others actively joined the discussion.

At the end, it was decided that the dissertation is approved for the next phase.




# "AZƏRKİTAB" KİTAB TƏBLİĞATI MƏRKƏZİNDƏ TƏLƏBƏLƏRİN SƏRGİSİ

# STUDENT EXHIBITION AT "AZƏRKITAB" BOOK PROMOTION CENTER

Yanvarın 31-də "Azərkitab" Kitab Təbliğatı Mərkəzində Xəzər Universitetinin dizayn ixtisası və Musiqi və incəsənət departamentinin rəssamlıq ixtisası tələbələrinin işlərindən ibarət sərgi nümayiş etdirildi.

Tədbiri universitetin Xalçaçılıq Muzeyinin direktoru, dizayn ixtisasının koordinatoru rəssam Afaq Kərimova açaraq, nümayiş etdilən işlər haqqında məlumat verdi. Tələbələr də öz işləri haqqında geniş izahatla çıxış etdilər.

Tədbir sərgiyə baxışla başa çatdı.

On January 31, an exhibition of works by students studying in Artistry, the Department of Music and Fine Arts of Khazar University, was demonstrated at "Azərkitab" Book Promotion Center.

Artist Afag Karimova, Director of the Carpet Museum of Khazar University and Coordinator of Design speciality, made an opening speech and gave information about the exhibited works. Students also gave an extensive explanation about their works.

The event concluded by exhibition view.






## "XARIBÜLBÜL-MİLLİ ORNAMENT KİMİ" LAYİHƏSİNİN TƏDBİRLƏRİNDƏN BİRİ XƏZƏR UNİVERSİTETİNDƏ KEÇİRİLDİ

## ONE OF THE EVENTS OF "KHARIBULBUL AS A NATIONAL ORNAMENT" PROJECT HELD AT KHAZAR UNIVERSITY

Fevralın 7-10-da Bakı şəhərində Azərbaycan Gənclər Fondunun qrant müsabiqəsi üzrə qalib olmuş, "Düşüncə Gücü" gənclərin fərdi inkişafına dəstək ictimai birliyinin tərəfdaşlığı ilə "Xarıbülbül-milli ornament kimi " layihəsinin tədbirləri keçirilmişdir.

Tədbirlərdən biri fevralın 8-də Xəzər Universitetində oldu. Tədbirdə dizayn ixtisasının və Musiqi və incəsənət departamentinin rəssamlıq ixtisasının tələbələri iştirak edirdilər.

Tədbiri universitetin Xalçaçılıq Muzeyinin direktoru, dizayn ixtisasının koordinatoru rəssam Afaq Kərimova açaraq, layihənin rəhbəri Güldəstə Həsənlini iştirakçılara təqdim etdi və nümayiş etdirilən işlər haqqında məlumat verdi. Sərgidə Afaq Kərimovanın məşhur "Xarıbülbül" qəzəlinin müəllifi Ağabəyim ağaya həsr etdiyi batikası və tələbələrin əl işləri nümayiş etdirilirdi.

Tədbirdə Güldəstə Həsənli çıxış edərək, "Xarıbülbül-milli ornament kimi " layihəsi haqqında ətraflı məlumat verdi, tələbələrin əl işlərini yüksək qiymətləndirdi.

Tədbir nümayiş etdirilən işlərin müzakirəsi ilə başa çatdı.

On February 7 -10, events of "Kharibulbul as a national ornament" project were held. The project was implemented by "Support for Young People's Individual Development" Public Union.

One of the events took place at Khazar University on February 8. The event was attended by students studying in Artistry, the Department of Music and Fine Arts.

Artist Afag Karimova, Director of the Carpet Museum of Khazar University and Coordinator of Design speciality, made an opening speech. She introduced Guldasta Hasanli, Project Leader, and gave information about the exhibited works. Afag Karimova's batik dedicated to Aghabayim agha, the author of "Kharibulbul" ghazal, and students handcrafts were demonstrated at the exhibition.

At the event, Guldasta Hasanli delivered a speech and gave a wide information about "Kharibulbul as a national ornament" project and highly appreciated students' handicrafts.

The event concluded by discussing the handcrafts.




KHAZAR
UNIVERSITY




XARIBÜL





# İNGİLİS DİLİ VƏ ƏDƏBİYYATI DEPARTAMENTİNDƏ MAGİSTR DİSSERTASİYALARININ MÜDAFİƏSİ

# MASTER'S THESES DEFENSE HELD AT THE DEPARTMENT OF ENGLISH LANGUAGE AND LITERATURE

Fevralın 11-də Xəzər Universiteti İngilis dili və ədəbiyyatı departamentində tərcümə və dilşünaslıq ixtisası üzrə magistratura tələbələrinin dissertasiya işlərinin müdafiəsi təşkil edildi. Müdafiə şurasında İngilis dili və ədəbiyyatı departamentinin müdiri Bahman Amani (PhD), departamentin proqram koordinatoru Milana Abbaso-va (PhD nam.) və müəllimi İrina Orucova (PhD), Azərbaycan Dillər Universitetinin Xarici dillər kafedrasının professoru Azad Məmmədov, Azərbaycan Dillər Universitetinin baş müəllimləri İradə Səmədova (PhD) və Sevil Qurbanova (PhD) iştirak edirdilər.

Müdafiə şurasının sədri, filologiya üzrə fəlsəfə doktoru İrina Orucovanın rəhbərliyi ilə keçirilən müdafiədə müzakirələr aparıldı, iddiaçılar sualları cavablandırdılar. Səbinə Səfərli, Firuzə Nəsibzadə, Fəridə Mamedova, Nuranə İsgəndərova və Sevinc Dadaşzadə Magistr dərəcəsini almaq üçün elmi işlərini uğurla müdafiə etdilər.

On February 11, discussion of Master's theses on the specialty of Translation and Linguistics were held at the Department of English Language and Literature.

Bahman Amani (PhD), Head of the Department of English Language and Literature; Milana Abbasova (PhD candidate), Program Coordinator at the Department of English Language and Literature; Irina Orujova, Instructor at the Department of English Language and Literature; Azad Mammadov, Professor of Foreign Languages Department at Azerbaijan University of Languages; Irada Samadova (PhD), Head Instructor at Azerbaijan University of Languages; Sevil Gurbanova, Head Instructor at Azerbaijan University of Languages, participated at the discussion meeting.

The meeting was chaired by Irina Orujova, Chair of Defence Council. The theses were discussed and the candidates answered the questions. Sabina Safaraliyeva, Firuza Nasibova, Farida Mamedova, Nurana Isgandarova and Sevinj Dadashzadeh successfully defended the thesis for a Master's degree.















*Lamiyə Piriyeva*

# XƏZƏR UNİVERSİTETİNİN MULTİMEDİA MƏRKƏZİ TƏQDİM EDİR

Xəzər Universiteti Multimedia mərkəzinin əməkdaşları Bakı axşamlarının maraqlı görüntülərini lentə almışlar.

# KHAZAR UNIVERSITY'S MULTIMEDIA CENTER PRESENTS

Employees of Multimedia Center of the Khazar University took interesting video footage of Baku evenings.



*Arzu Məmmədova*



*İsmət Məmmədova*



*İsmət Məmmədova*



*Lamiyə Piriyeva*



İsmət Məmmədova

İsmət Məmmədova







İsmət Məmmədova

Arzu Məmmədova



# Qar

*(hekayə)*

**Arçil Sulakauri**
1927-1997
*Gürcüstan*

Həyətdə qar yağır...

Pəncərədən qar dənələrinin göydən ələnib, ağacları, damları, küçələri və insanları ağ libasa bürüdüyünü görürəm. Təzəcə qarlamağa başlayıb. Bir növ gözlənilmədən, qəflətən yağdı. Elə bil küçədə hava çatmırdı. Saysız-hesabsız, kəpənək qanadları kimi zərif qar dənələri havanı hər yerdən qovub çıxarmış, indi isə ara vermədən fırlanır və ətrafdakı hər şeyin üstünü örtüb görünməz edir.

- Qar yağır, - o biri otaqdan arvadım səsləndi - bir bax.

Arvadımın səsindən sevincini sezib, səsinə səs verdim:

- Hə, yağır.

- Nə vaxtdır belə qar görməmişdim.

- Elə mən də.

Əlli-ayaqlı qar dənəcikləri pəncərənin şüşəsinə yapışır və o saatca əriyib gedirdilər. Şüşəmiz bayırdan nəmli, ərimiş qarın ləkələri ilə doluydu. Yoldan ötənlər körpünü bürümüş qarı ayaqlayıb keçirdilər. Xır-xırı qulağıma gəlib çatmasa da, təzə qarın ayaqlar altında necə əzildiyini hiss edə bilirdim. Məhəllələrdən küçələrə xizəkli, isti geyimli, pomidoryanaqlı uşaqlar axışır, qar lopalarının girdabına atılıb gözdən itirdilər.

- Uşaqları gördünmü? - arvadım soruşur.

- Hə gördüm, - cavab verirəm.

Otağımız istidir. Pəncərənin qabağında oturub, dirsəyimlə yazı masasına söykənmişəm. Sobada nəsə aram-aram, sakitcə, şaqqaşaq yanır. Yaxşı ki, bayırda qar yağsa da, otaq istiydi: indi adam üçün dünyanın ən əziz şeyi istilikdir.

Qarsa yağırdı...

Küçə rəssam fırçasından çıxmış kimi görünür və saysız-hesabsız qar dənələri bu gözəlliyə ayrıca sehr qatırdı... Nə bilim, mənə belə gəlir.

Çiynimdə bir toxunuş peyda olduğunu hiss etdim, əvvəlcə bir əlin, sonra isə o əlin bağlı olduğu bütöv bədənin toxunuşu.

- Bir gün bizim uşaqlarımız da qarın altında beləcə qaçışacaqlar - arvadım dedi.

- Əlbəttə, - mən dilləndim - onlar da beləcə qaçacaqlar.

Arvadımın barmaqları saçlarımda gəzişir. Mənə nəsə demək istədiyini sezirəm. - Bilirəm - deyərək, göz qapaqlarını yarıya qədər qapadıb, başını aşağı dikib, ağ libasa

bürünmüş küçəyə göz gəzdirdi.

- Qəribədir, - arvadım dedi, - indi ilk görüşümüzü xatırlayıram. Belə qar yox idi, amma keçən qış da builkindən kəm deyildi... Hə, qış yaman idi... – o nəyəsə işarə vururmuş kimi təkrarladı. - Yadımdadır, Besiki küçəsiylə düşürdüm. Sürüşkən idi, qorxurdum yıxılam. O dəmdə eyni bunlara oxşayan bir dəstə cavan gördüm, döngədə dayanıb qızlara qartopu atırdılar. Narın qara bürünmüş oğlanlar küçəmizin döngəsində durub səsləri çıxdıqca bağırışır, ovuclarında yeyin-yeyin qar yapır, körpüdən aşağı atırdılar. Kimi nişan aldıqlarını görməsəm də, çığırtı dolu gülüş sədalarından belə anlayırdım ki, qızlardır, özü də bu qızlar bir yandan qorxsalar da, bir yandan şənlənir, uçan qartopulardan cəld hərəkətlərlə yayınaraq, bizim pəncərəmizin önünə tərəf qaçırdılar.

- Mənim qartopundan qorxum yox idi - arvadım danışır - bircə ondan qorxurdum ki, qartopunun zərbəsiylə karıxıb yıxılam, camaatın içində gülməli vəziyyətə düşəm... Elə o dəmdə sən qarşıma çıxdın, məni ötürməyini rica etdim. Əlbəttə, heç tanımadığım adamdan belə xahiş etmək mənə çətin gəlirdi... Amma sən elə nəzakətli... Elə xoşrəftar davrandın ki...

Bir yandan arvadıma qulaq verərkən, o biri yandan küçəyə göz gəzdirməklə məşğuldum. Məhləmizdə hələ də külək vıyıldayır. Qar alçaq kirəmit damlara qədər çatırdı. Klubun hisdən qaralmış bacasından boz tüstü pardaqlanır, aşağıya doğru süzülür, şəffaflaşır və qar dənələri arasında görünməz olurdu.

- Sonra məni Rustaveli prospektinə qədər ötürdün, - arvadım xatırlamağa davam edirdi, - biz orda çox nəzakətlə vidalaşdıq... Heç onda ağlıma gələrdimi, ya da bircə anlıq da olsa fikrimdən keçərdimi ki...

Nədənsə, Bakuriyanidə başıma gələnlər yadıma düşdü... İndi dəqiq yadımda deyil, bəlkə iki, bəlkə də üç il əvvəl, ola bilər hətta dörd il əvvəlin hadisəsiydi...

Bakuriyanidə, bir parkdakı təpəlikdə bir dəstə oğlan və qızla qarşılaşdım. Onlar da mənim kimi tələbə idilər, demək olar hamısını az-çox tanıyırdım. Onlar da elə Libaniyə qədər xizəklə getməyi planlamışdılar. Onlara qoşuldum və hamı birdən təpəlikdən aşağı endik. Tələsirdik. Elə o axşam geri qayıda bilmək üçün Libanidən keçən qatara yetişməliydik. Aramızda bir kimsə hətta xizəyin üzərində dayana biləniniz də yox idi. Budur artıq xizək yoluna çatmışdıq, yol insan ayağı dəyməmiş qarın arasıyla keçən dəmir yolunu andırırdı. Orda xizəklərimiz öz-özünə sürüşüb gedirdi, bizdən nə elə böyük çeviklik, nə də də ustalıq tələb olunurdu.

Biz, bir-birinin arxasınca düzülmüş xizəkçilər qara bürünmüş şam meşəsinin ortasıyla irəliləməkdəydik. Qarın əks etdirdiyi günəş şüaları adamın gözünü deşir, budaqları lopa-lopa qar yükü altında əyilmiş şam ağacları bizi qarşılayıb yola salır, ardımızda gözdən itirdi.

Hərdənbir dayanıb meşənin sükutuna qulaq kəsilirdik. Hardasa yaxınlarda ağacdələnin bir budaqda oturub aləmə yaydığı tıqqıltı qüsursuz qar sükutunu pozmaqda idi. Biz ovcumuzu qarla doldurub yanaqlarımıza bulaşmış toz-torpağı təmizləyir, sonra üzümüzü günəşə tutub yanaqlarımızın qızışmasını gözləyirdik. Ardıyca yenidən ağacların arasıyla və əyilmiş budaqların altıyla sürüşərək irəliləyirdik.

Günəş meşənin arxasında batmağa gedirdi. Bənövşəyi kölgələr qarın üstüylə sürünür, yavaş-yavaş böyüyür, ara vermədən uzanır və bir-birinə pərçimlənirdi.

Birdən parovoz fitinin səsi eşidildi. O hardansa lap yaxından ötürdü. Biz hamımız bir anda dayanıb qulaqlarımızı şəkləyərək, səs gələn tərəfə boylandıq. Ardınca parovoz sanki lap bir addımlığımızda fit verdi. Yoldaşlardan bəziləri hətta qatar təkərlərinin taqqıltısını eşitdiyini iddia etdi. Mən təkər səsi eşitmədiyim üçün sakitcə dayanıb baxırdım. İlk dəfədir ki, xizəklə belə uzağa getmişdim deyə, qəfil qorxu məni bürüdü. Qatara geciksəydik, Allah bilir, gecə harda qalacaqdıq.

Biz Libaniyə getmək fikrindən daşınıb, yönümüzü Sakoçaviyə tərəf çevirdik. Düşündük ki, bəlkə ordan keçən qatara vaxtında yetişə bilək.

Cəmi altı nəfər idik. Mən sırayla addımlayan insan qatarında beşinci yerdə gedirdim. Paravozun hər fiti ürəyimə bir od salırdı, o gah uzaqdan, gah da qulağımın dibindəymiş kimi səslənirdi, gah elə bilərdin Bakuriyanidədir, gah da deyərdin Libanidədir. Mən qorxmuş və karıxmış halda dabanıma tüpürüb irəliləyirdim.

Bizi qovub yollarda yorğun salan axşam alatoranlığı, axır ki, üstümüzü almışdı. O da bizim kimi meşə boyu sürüşürdü. Bu gözəgörünməz nəsnə, ağaclar arasındakı bütün işığı hiss olunmadan oğurlayıb amansızcasına üzərimizə şığımaqdaydı, biz nə qədər qan-tərə batsaq da, o yüyürüb bizə çatırdı.

Arxamca kimsə heylədi. Çevrilib ayaq saxladım: sən demə, qatarımızın altıncı üzvü büdrəyib, məndən imdad diləməkdəydi. Altıncı üzvümüzün kim olduğu ağlıma gəlmirdi, bircə qaranlıqda yerə uzanmış bir kölgənin ayağa qalxma səylərini görməkdəydim. Səsindən qız olduğu açıq sezilirdi, amma bunun bir fərqi yox idi, gərək ona kömək əlimi uzadaydım.

Arxaya çətinliklə fırlandım, xizəyimin hər tayı bir tərəfə sürüşdü. Az qaldı əlli-ayaqlı gedəm. Müvazinətimi toplayıb, xizəyimin üstündə tarac oldum və cəld özümü qıza yetirdim. Sən demə, altıncı adam bizim universitetin tələbəsi Lelaymış, onu uzaqdan, elə-belə tanıyırdım. O həmişə mənlə mehribancasına salamlaşar, mən də hər dəfə bu qızla daha yaxından tanış olmağa can atardım. Bir yandan da bu qarabuğdayı, arıq-uruq qızda məni nəsə çəkirdi.

- Elə bilirdim irəlidəsən, bura necə düşübsən? - mən heyrətlə soruşdum. Lela naqolayca yerə yıxılmışdı. Ayaqları və xizəkləri bir-birinə dolaşıb yerdə qalmışdı. O əliylə qarla örtülmüş yerə dirsəklənib ayağa qalxmaq istəyir, amma alınmır, qolları çiyin bərabərinə qədər sürüşüb gedirdi.

Lela gülümsəməyə çalışır, mənsə təbəssümündəki acılığı sezirdim. Onu ayağa qaldırmaq üçün xeyli əlləşdim. Əlcəyimlə onun qarda sürüşmə kostyumuna yapışmış qarları çırpdım. Qızı xizəyin üstünə qaldırıb, irəliyə doğru itələdim. Di gəl ki, Lela bir addım getməmiş yenidən aşağı çöməldi, əlləri topuqlarının yanına düşdü və ağrıdan üz ifadələri dəyişdi.

Çəkmələrini xizəkdən çıxartmadan ayağından soyundurdum. Corablarını da soyundurdum. Əvvəlcə ayaqlarını uzadıb cütlədim, sonra əlimə alıb ovxalamağa başladım. Yazıq qız ağrıdan inildəyir, ayağını əlimdən dartıb çıxarmağa çalışırdı. Yenidən corabını geyindirdim, ardınca çəkmələrini də geyindirdim və qaytanlarını yaxşıca bağladım.

Biz ehtiyatla dikaşağı sürüşməkdəydik. Bir ara tamam susduq. Əvvəl elə bildim irəli gedənlərin arxasınca çatacağam, ancaq yolayrıcında çoxlu xizək izlərinin kəsişməsini və

hərəsinin bir yana üz tutub getməsini görəndə çaşıb qaldım, təşviş içində Lelaya baxdım.

Hansı yönə gedəcəyimizi bilmirdim. Lelada isə təşvişdən əsər-əlamət yox idi, durub sakit bir maraqla ətrafına göz gəzdirirdi. O mənə bel bağlayırdı. Elə bilirdi bu yolları Tbilisinin yolları kimi əzbərdən bilirəm...

- Sonra biz küçədə qarşılaşdıq, - arvadım məni fikrimdən ayırdı – təsadüfən qarşılaşıb hal-əhval tutduq.

Onu küçədə saxlayıb, söhbətə tutduğum haqda danışmağa davam etdi. Arvadımın yumşaq və bir az da kədərli səsi qulağımda cingildədi. Özü kədərli deyildi, sadəcə səsi beləydi və onun bu səsiylə söhbət etməsini sevirdim, xüsusilə əhvalatları keçmişə aid olanda... İndi məhəlləni qar basmışdı və mən pəncərədən qara tamaşa edirdim. Yenidən fikrim məni Bakuriyaniyə, bir zaman Lelayla dayandığımız həmin yolayrıcına apardı. O vaxt hansı yolla getdiyimiz xatirimdə deyil, bircə o yadıma düşür ki, biz tezliklə gedib dəmir yoluna çatmışdıq. Lela orda da bir dəfə yıxıldı, ayaqlarının ağrıdığını etiraf elədi və bu vəziyyətdə sürüşmək ona çətin idi. Ətrafıma boylandım, yoldaşlarımızdan heç kim gözə dəymirdi, görünür başqa yolla getmişdilər.

Aşağıdan parovozun fitinin səsi gəlirdi.

- Məncə çatacağıq, - Lela dilləndi, - stansiya buralarda bir yerdə olmalıdır.

Lelanın xizəklərini açdım, özümünkünü də çıxardım, çiynimdə iki cüt xizəklə dəmir yolu boyunca addımlamağa başladım. Lela, axsaya-axsaya arxamca gəlirdi. Hava qaraldığı üçün Lelanı tələsdirirdim. İstəyirdim dəmir yolu stansiyasına vaxtında çata bilək.

Lela "bir az yavaş" getməyi xahiş edirdi, - mənsə gecəni bayırda keçirməkdən qorxduğum üçün az qala yüyürməkdəydim.

Çiynimdəki xizəyin metaldan düzəldilmiş ayağa bərkitmə hissəsi aradabir buxağıma dəyir, üzümdə sanki qızdırılmış şiş hiss edirdim.

- Dayan, - Lela arxadan qışqırdı, - daha bacarmıram.

- Mənimsə gözləməyə vaxtım yoxdur: Lelaya acıqla qışqırdım və o yüngülcə büdrəyib itaətlə arxamca addımlamağa davam etdi. Bir dəqiqə keçməmiş yenidən zarıdı:

- Dayan, azca dincələk.

- Bir qırıq yol qalıb, paravozun fısıltısını eşitmirsən?

- Deməli sən belə insansanmış!

- Gördüyün kimi beləyəm. Bir az tələs!

- İstəyirsən çıx get, mən daha gəlmirəm.

- Necə yəni, bəlkə burda qalmaq istəyirsən?

- Hə, burda qalacağam!

- Bir az əlli tərpən!

- Getmirəm, bax getmirəm!.. Bax bu relslərə uzanıb qalacağam!.. "Gedə bilmirəm» sözünü başa düşürsən, ya yox?

Lela arxamca gəlməyə davam edirdi. Yıxılıb, durur, yenə də addımlayırdı. Gecənin ortasında özümü irəli atmışdım. Relslər parıldayır, mənsə bu soyuq parıltının arxasınca uçunurdum. Hərdənbir dayanıb yubanan Lelanı gözləyirdim, hərdənbir ona qışqırır, hərdənbir də ruh yüksəkliyi yaratmağa çalışırdım. Özümü mətin və iradəli hesab edirdim. İstəyirdim bu iradəmlə arxamca gələn axsaq və sızıldayan insana təsir göstərim.

Lela sızlayır, üsyan edirdi. Onun ağlamağı məni özümdən çıxardırdı. Sızıltıları birbaşa

əsəblərimə işləyirdi. Növbəti dəfə onun üstünə qışqırdım, hələ daha irəli getdim, dərhal ağlamağı kəsməsini əmr etdim. Lela səsini kəsdi, ağlamağa son verdi...

O gedir, yıxılır, durur və yenidən yola davam edirdi...

Arvadım nəsə deyirdi. Eşidə bilmədim, "lütfən təkrar elə" dedim və o təkrarladı:

- Bilirsən, mənə elə gəlir qar başqaları üçün yağır...

Mən heyrət içində ona tamaşa etdim.

- Qəribədir, elə deyilmi? - arvadım dedi.

Mən gülümsədim, razılıq əlaməti olaraq başımı yellədim:

- Bəli... Mənə içməyə bir şey gətir...

Arvadım stəkana şərab süzüb gətirdi.

- Özün içmirsən?

- Yox.

- Bircə qurtum da sən al...

- Yox, mənə olmaz.

- Hə, düzdür, sənə olmaz.

Ətirli kəhraba rəngli mayeni astaca başıma çəkib, siqaretimi odladım.

... Axır ki, stansiya uzaqdan görünməyə başladı, indi ürəkdən nəfəs ala bilərdim, köksümün ortasından sevinc dolu qışqırıq qopdu:

- Stansiyaya çatdıq!

Qatar perronda dayanmışdı, parovoz tüstülənir, bacasından qığılcım və qatı duman buraxırdı.

Səsimi içimə atıb, stansiya binasına üz qoydum. İçəri isti idi, soba vam xodda yanırdı. Canımı qızdırdım, hələ tərlədim də, yenə də istidən doymadım. Həzzdən silkinib özümə gəldim. Bakuriyaniyə iki bilet alıb bir anın içində özümü vaqonun girişinə, məni gözləməkdə olan yorğun və üzgün Lelanın yanına çatdırdım.

Qatara minəndə vaqonların birində yoldaşlarımızı tapdıq və onların kupesinə yerləşdik. Bizi yarı yolda qoyub gözdən itdikləri üçün yoldaşları danladım, onlar isə bığaltı gülməkdən başqa bir qarşılıq vermədilər. Onların belə şübhəcil təbəssümlərini və qara bələnmiş Lelaya çəpəki nəzərlərini onda anlaya bilməmişdim. Bizim çevrədən olan ikinci qız (onun adını indi xatırlamıram), nədənsə incimiş kimi, hamıdan kənarda oturub heç Lela tərəfə belə baxmırdı. Mənimsə kefim kök idi, hamımız qatara vaxtında yetişmiş və hər şey xoş sonluqla bitmişdi.

Kiçik vaqon ağzına kimi xizəkçilərlə dolu idi. Yerimizi rahatlayan kimi başımıza gələnlər haqda ucu-bucağı görünməyən söhbətlər başladı, hər kəs o birindən qabaq təəssüratlarını bölüşmək istəyirdi. Vaqonun o biri başında yoldaşlarımızın bəziləri mahnı oxuyurdu. Parovoz iki dəfə fit verdi, fışıltı və xırıltı ilə Bakuriyaniyə doğru yerindən götürüldü. Mən Lelaya tərəf əyilib, bir az da ikimənalı şəkildə xısınladım:

- Görürsən, tələsməyin axırı nə yaxşı olurmuş?!

Lela susub pəncərədən bayıra baxırdı. Ölgün işıqla işıqlandırılmış, qarın içində görünməz olan perron, stansiyanın xırdaca binası, səmadakı ulduzların parıltısı fonunda sezilən tüstü bacası arxamızda qalmaqdaydı.

Lelanın şalvarının, qara yun koftasının üstünə yapışmış qarlar əriyirdi, açıq-aydın yaş ləkələr nəzərə çarpırdı, onun üşüdüyü şübhəsiz idi. O bir küncə büzüşüb gözlərini

yummuşdu. Kirpiklərinin kölgəsi solğun, arıq üzünə düşürdü. Saçlarına yapışmış qarlar da əriyir, işıq şüaları kiçik damcıları inci kimi parıldadırdı.

Parovoz fit verə-verə yoxuşu çıxmaqdaydı. Dartıb apardığı qatarları dikə çıxartmaq ona çətin gəldiyi hiss olunurdu, bir anlığa hətta dayandı, sanki nəfəsini dərib, irəli atılmaq üçün güc topladı. Sonra tam güclə irəliləməyə başladı, qar örtmüş meşəyə doğru nəsə çığırıb bizi yaxşıca silkələdi və yoluna davam etdi.

"Görürsən tələsməyin axırı nə yaxşı olurmuş?!" – mən dəqiqəbaşı öz-özümə təkrarlayır, sanki yaxşı bildiyim mahnını zümzümə edirdim. Bir anlıq öz-özümə düşündüm: guya yaxşı nə oldu ki? Əgər mən tələsməsəydim, qatar bizsiz çıxıb getsəydi, pis nə olasıydı ki? Lelanın yanıyla asta-asta, ehtiyatla gedib, zədələnmiş ayağını incitməmək üçün ona yeriməyə kömək etdərdim. Bu vəziyyətdə də stansiyaya gəlib çıxardıq... Elə stansiyada da gecələyə bilərdik, axı orda soba yanırdı və isti idi..."

Lelanın ayağının möhkəm ağrıdığı və onun ağrıya çətinliklə tab gətirdiyi üzündən sezilirdi. Hələ onu da hiss edirdim ki, qızın boğazı düyünlənmişdi, gözünü açan kimi hönkür-hönkür ağlayasıydı. Elə buna görə də özünü yuxululuğa vurmuşdu. Bu yuxu bir növ ağrını gizlədən maska idi.

Daha vaqonda dayana bilməyib, özümü dəhlizə vurdum. Dəhlizdə şaxta məni kəsdi və çıxmağıma peşman oldum. Kupemə qayıtmaq istəyirdim, amma Lelanın qarşısında utanıb yerə girirdim... Hələ də başa düşə bilmirəm qatarın çıxıb gedəcəyi məni niyə qorxudurdu ki... Axı, niyə heç kişiyə yaraşmayan şəkildə qaranlığın düşəcəyindən qorxub başılovlu qaçmağa üz qoymuşdum.

Parovoz qara bürünmüş Bakuriyani meşəliyinə nəsə çığıraraq keçirdi, mən dəhlizdə dayanıb gecə qaranlığına tamaşa edirdim. Birdən mənə elə gəldi ki, kimsə qatarın yanınca qaçır. Sanki, kiminsə hərəkətdə olan kölgəsi gözümə dəyirdi və bu kölgə axsaya-axsaya qatara çatmağa çalışırdı. Özümü pis hiss etdim və kupeyə geri qayıtdım.

Vaqonda hələ də yoldaşlarım mahnı oxumaqdaydı. Qulağım mahnıları daha aydın seçməyə başlamışdı, çünki söhbətlər kəsilmiş, hərə bir yanda özünü mürgüyə vermişdi.

- Sən nəzakətli və qorxusuz idin... Qartopu atan cavanların qarşısında tükünü belə tərpətməmişdin... – arvadım o biri otaqdan dillənirdi.

Ev istiydi, soba yanırdı. Pəncərə şüşəsinin önündə dayanıb, eynilə akvariumdan baxan bir balıq kimi bayıra baxırdım. Yağan qara tamaşa edib, öz-özümə deyirəm: budur, böyük qış gəldi çıxdı!

Arvadım evin içində o yan-bu yana qaçır, qarın yağmasına sevinirdi, qar ona bizim ilk qarşılaşmamızı xatırladırdı... Arvadım hər şeyi dəqiqliyiylə xatırlayır...

Beləcə, həyatımızda qar yağır...

*Çevirdi:* **Namiq Hüseynli**

# TURİSTLƏR ÜÇÜN ƏN CƏLBEDİCİ ŞƏHƏRLƏR

EUROMONITOR INTERNATIONAL

**"EUROMONITOR INTERNATIONAL" ŞİRKƏTİNİN HESABATINDA 2017 - Cİ İLDƏ TURİSTLƏR ÜÇÜN ƏN CƏLBEDİCİ ŞƏHƏRLƏRİN ADLARI AÇIQLANIB**

## ÇİN

**Siyahıya Honkonq başçılıq edir. 2017-ci ildə şəhərə 25,7 milyon turist gəlib.**

**İkinci yerdə Banqkok (23,3 milyon), 3-cü yerdə isə London qərarlaşıb (19,8 milyon).**

*(Əvvəli jurnalın ötən saylarında)*

## ŞENÇJEN

















# DÜNYANIN ƏN GÖZƏL KİTABXANALARI

*TUT.BY xəbər portalı memarlıq nöqteyi nəzərindən dünyanın 28 ən gözəl və qeyri-adi kitabxanasını təqdim etmişdir. Oxucularımızı onlarla tanış edirik.*

## ABŞ

**Kaliforniya Universitetində T. Qeyzel adına kitabxana**

Kitabxana Kaliforniya Universitetinin San-Dieqoda yerləşən əsas binasıdır. Kitabxanaya uşaq yazıçısı və multiplikator Teodor Syuz Qeyzelin adı verilmişdir.

Onun təsviri universitetin loqotipində də yer almışdır. Orijinal konstruksiya 1960-cı illərin sonlarında arxitektor Uilyam Pereyra tərəfindən işlənib hazırlanmışdır.

Lampanı xatırladan binanın giriş qapıları diqqəti xüsusilə cəlb edir. Qapıları Con Baldessari hazırlamış və belə adlanır: «Read / Write / Think / Dream» («Oxu / Yaz / Fikirləş / Arzula»).

Kitabxana bir sıra film və serialların "qəhrəman"ı və çəkiliş meydançası olmuşdur. Misal üçün, o, rejissor Ted tərəfindən "Mən sizin ananızı necə qarşıladım" serialının seriyalarından birində, "Mission: Impossible" serialında lentə alınmış, "Qövsi-quzehin sonu" elmi-fantastik romanında təsvir olunmuşdur.



www.dunyaschool.edu.az

XƏZƏR UNİVERSİTETİ
DÜNYA MƏKTƏBİ

BEYNƏLXALQ
BAKALAVR
TƏŞKİLATI

# XƏZƏR UNİVERSİTETİ DÜNYA MƏKTƏBİNDƏ 2018-2019-CU TƏDRİS İLİ ÜÇÜN ŞAGİRD QƏBULU ELANI



Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir. Qəbul imtahanında ən yüksək nəticə göstərən şagirdlər təqaüd imkanı qazanırlar.

Azərbaycan və rus bölmələrində ingilis dili ikinci dil kimi tədris olunur.İngilis dilinin tədrisi beynəlxalq standartlara uyğun təşkil olunmuşdur.

Şagirdlərin seçimi ilə fransız, alman və ya çin dili də öyrədilir.

Məktəbdə təcrübəli yerli pedaqoqlar və xaricdən dəvət edilmiş mütəxəssislər çalışırlar. Məktəbdə bilik və tərbiyə ilə yanaşı, sosial fəaliyyətlərə də böyük əhəmiyyət verilir.

AZƏRBAYCAN BÖLMƏSİ
I-XI
RUS BÖLMƏSİ
I-XI
İNGİLİS BÖLMƏSİ
I-XI
SİNİFLƏRƏ

Dünya məktəbində Beynəlxalq Bakalavr Təşkilatının (İnternational Baccalaureate Organization – IBO) ibtidai, orta məktəb və Diplom proqramları fəaliyyət göstərir.

X sinif şagirdləri tam orta təhsillə yanaşı, Beynəlxalq Bakalavr Təşkilatının Diplom Proqramında təhsil ala bilərlər. Digər məktəblərin şagirdləri də imtahan verməklə Diplom Proqramına qəbul edilirlər. Diplom proqramında təlim ingilis dilindədir, təhsil müddəti iki ildir.

Beynəlxalq Bakalavr Diplomu əldə edən şagirdlər dünyanın tanınmış universitetlərində təhsillərini davam etdirmək imkanı qazanırlar.

## BAĞÇA VƏ MƏKTƏBƏQƏDƏR HAZIRLIĞA ŞAGİRD (4-5, 5-6 yaş) QƏBULU DAVAM EDİR.



Keyfiyyətli təhsil, sağlam yaradıcı mühit şagirdləri öyrənməyə həvəsləndirir. Gündəlik dərs proqramından əlavə şahmat, kompüter, psixologiya, rəsm,texnologiya, musiqi, rəqs, dram və üzgüçülük dərsləri keçirilir, ən önəmli bacarıq və vərdişlər formalaşır. Təhsil azərbaycan, rus və ingilis dillərində aparılır.

SİZİ GÖZLƏYİRİK.
DÜNYA MƏKTƏBİ SİZİN ARZULARINIZI GERÇƏKLƏŞDİRƏN BİR MƏKTƏB. BİZİ SEÇSƏNİZ, İNANIRIQ Kİ, SƏHV ETMƏZSİNİZ. DÜNYANI DÜNYA MƏKTƏBİNDƏ KƏŞF EDƏCƏKSİNİZ.

Bakı, Əcəmi Naxçıvani 9
Tel: (+99412) 563 59 40/47/48
Mob: (+99470) 844 08 88

E-mail: info@dunyaschool.az
URL: www.dunyaschool.edu.az

Sumqayıt, Bakı küçəsi 37
Tel.: (+994 18) 642 30 97
Mob.: (+994 55) 669 96 33

# XƏZƏR UNİVERSİTETİ

HƏR GÜN, HƏR SAAT MÜKƏMMƏLLİYƏ DOĞRU!

## NİYƏ XƏZƏR UNİVERSİTETİ?

- Diplomların bütün xarici ölkələrdə tanınması
- Dövlət sifarişi əsasında təhsil almaq imkanı
- Eyni vaxtda 2 ixtisas üzrə təhsil almaq imkanı
- Təhsil haqqının Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (keçmiş TQDK) imtahanlarında yığılan ballara uyğun olaraq ödənilməsi
- Təhsil haqqının hissə-hissə ödənilməsi
- Zəngin kitabxana, innovativ laboratoriyalar, müasir informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun varlığı
- Dövlət sifarişi və ya ödənişli təhsil almalarından asılı olmayaraq, təhsildə göstərdikləri nailiyyətlərə görə təqaüd almaq imkanı
- Əlavə ödəniş etmədən təhsilinin bir hissəsini Amerika, Avropa və Asiyanın tanınmış ali məktəblərində davam etdirmə imkanı
- Keyfiyyətli və əhatəli tələbə xidmət sistemi (həkim, psixoloji mərkəz, karyera-işə düzəlmə mərkəzi və s.)
- Yüksək standartlara cavab verən müasir yataqxana

### TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİNDƏ GÜZƏŞTLƏR

650-700 bal - təhsil haqqından tam azad edilir
600-649 bal - təhsil haqqının ödənilməsində 50% güzəşt edilir
550-599 bal - təhsil haqqının ödənilməsində 40% güzəşt edilir
500-549 bal - təhsil haqqının ödənilməsində 25% güzəşt edilir
450-499 bal - təhsil haqqının ödənilməsində 20% güzəşt edilir
400-449 bal - təhsil haqqının ödənilməsində 15% güzəşt edilir
350-399 bal - təhsil haqqının ödənilməsində 10% güzəşt edilir

Uğurlu karyera qurmaq, təhsildən zövq almaq və yadda qalan tələbə həyatı yaşamaq istəyirsən?

**Xəzər Universitetini seç!**

## BAKALAVR SƏVİYYƏSİNDƏ İXTİSASLARIMIZ

### 1 QRUP

* Kompüter elmləri
* Kompüter mühəndisliyi
* Neft-qaz mühəndisliyi
* İnşaat mühəndisliyi
* Elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi
* Kimya mühəndisliyi
* Mexanika mühəndisliyi
* Riyaziyyat və informatika müəllimliyi
* Fizika müəllimliyi

### 2 QRUP

* Mühasibat uçotu və audit
* Maliyyə
* İqtisadiyyat
* Menecment
* Marketinq
* Biznesin idarə edilməsi
* Turizm və otelçilik
* Regionşünaslıq (Avropa)
* Beynəlxalq münasibətlər
* Coğrafiya müəllimliyi

### 3 QRUP

* İngilis dili və ədəbiyyatı
* Azərbaycan dili və ədəbiyyatı
* Tərcümə (ingilis dili)
* Politologiya
* İngilis dili müəllimliyi
* Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
* İbtidai sinif müəllimliyi
* Tarix müəllimliyi

### 4 QRUP

* Kimya müəllimliyi
* Biologiya müəllimliyi
* Kimya və biologiya müəllimliyi
* Psixologiya

### 5 QRUP

* Dizayn